AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

**ƏBDÜLXALİQ CƏNNƏTİ**

*Anadan olmasının 150 illiyinə*

# VƏTƏN TƏRANƏSİ

**Bakı – Nurlan – 2006**

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 1-2 dekabr 2005-ci il tarixli 12 №-li iclasının qərarı ilə nəşr olunur.

*Toplayanı:*

**Əlabbas Müznib**

*Nəşrə hazırlayanlar və*
*ön sözün müəllifləri:*

**Sona Xəyal**
**Mustafa Mailoğlu**

*Redaktoru:*

**Məmməd Adilov**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## ÖN SÖZ

Azərbaycan klassik şeirinin ən mahir davamçılarından biri Əbdülxalıq Cənnəti Qafarzadə 1855-ci ildə Bakıda anadan olmuşdur. Şairin Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yeddi qovluqda əsərləri saxlanılır. Şair haqqında ən dəyərli məlumatı 1475 saylı fraqmentdən oxuyuruq. Şairin ana babasının, Bakı xanı Hüseynqulu xanın ovçubaşısı olan Səfərəlinin oğlu olduğunu, şairin doqquz yaşında dərsə gedib, xüsusi müəllim yanında iki il yarım dərs oxuduğunu, on iki yaşından işləyərək ailəyə kömək etdiyini bildirən yazıda həm də şairin yaradıcılıq fəaliyyəti ilə tanış oluruq. On səkkiz yaşından şeir yazmağa başlayan Əbdülxalıq gündüzlər işləyib, gecələr ürəfa məclislərinə gedər, ədəbiyyat söhbətlərinə qulaq asarmış. Şairlərlə şeirləşmədə dəfələrlə üstünlük qazanmış Əbdülxalıq öz şeirlərini "Vasif", "Əttar", "Həccarzadə", "Daşkəsənoğlu" təxəllüsləri ilə yazmış, sonralar bağa, bostana, gülüstana vurğun olduğundan biryolluq "Cənnəti" təxəllüsünü götürmüşdür. Bir dəfə yeddi şairin şeirləşdiyi məclisdə Seyid Əzim də iştirak edirmiş. Cənnəti hamıya üstün gəldiyində Seyid Əzim demişdir: "Təəccüb edirəm ki, bunlar hamısı məşhur ikən, siz nə üçün belə kəmnam qalmısınız?" Cənnəti bu suala belə cavab vermişdir: "Kiminin məşhurəti olur, kiminin hünəri".

Cənnətinin həyatında çox faciələr olmuş, o övladlarını vaxtsız itirmişdir, buna görə də əsəb xəstəliyinə tutulmuşdur. Şair 1931-ci ildə Bakıda vəfat etmişdir.

Cənnəti millət yolunda, tərəqqi yolunda daim mücadilə etmişdir. Əlabbas Müznib onu şeirimizin "Hürriyyət peyğəmbəri" kimi təqdim edir və Cənnətinin hürriyyət şeirləri yazdığı vaxtlarda nə Sabirin, nə Hadinin hürriyyət haqqında düşünüb şeir yazmadığını qeyd edir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

1905-ci ildə Bakıda mətbuat yaranandan sonra ən fəal şairlərdən biri kimi tanınan Cənnəti "Təkamül"də, "Dirilik"də, "İrşad"da müntəzəm çap olunmuşdur. Haqqında qeyd etdiyimiz əlyazmadan məlum olur ki, şairin dini mövzuda "Mühəssənati-şəriət" adlı risaləsi, nəsihətnaməsi, "Yənbuil-hikmət", "Təhvilül-övzan" adlı ədəbiyyat qaydaları kitabı, əxlaq elminə dair üçcildlik əsəri, altı min beytlik divanı və "Əs-Səfər fil-həzər" adlı romanı olmuşdur. Şairin həm fars, həm Azərbaycan dilində bir sıra əsərləri haqqında sovet dövründə də tədqiqatçı-alimlər məlumat vermişlər. 1946-cı ildə Akademiyanın "Ədəbiyyat və Dil İnstitutunun Əsərləri"nin birinci cildində Mir Cəlalın Cənnəti haqqında ilk məqaləsi çap olunmuşdur. Sonra 1956-cı ildə "Ədəbiyyat qəzeti"nin 10 iyun taririxli sayında Cəfər Xəndanın məqaləsi dərc edilmişdir. Maraqlıdır ki, məqalənin sonunda müəllif "Cənnəti böyük irs qoyub getmişdir, onun bir çox şeirləri indi də öz əhəmiyyətini itirməmişdir. Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən toplanmış bu şeirləri çapa hazırlayıb şairin heç olmazsa "Seçilmiş əsərləri"ni buraxmaq lazımdır", – yazır. Görəsən, o zaman şairin toplanmış əsərlərinin sonrakı taleyi necə omuşdur?

Cənnəti haqqında daha bir məqalə "Respublika Əlyazmalar Fondunun Əsərləri" toplusunun 1963-cü il buraxılışında çap olunmuşdur. İndiki Əlyazmalar İnstitutunun mərhum əməkdaşı Nəsrəddin Qarayev öz məqaləsində yazırdı: "Azərbaycan SSR EA Respublika Əlyazmalar Fondunda şair Əbdülxalıq Əbdülqafar oğlu Cənnətinin (1855-1931) B-1545, B-1199, B-2700 və M-152 nömrəli şifrələr altında avtoqrafları saxlanılır. B-1545 şifrəli ümumi dəftərdə Cənnətinin ictimai xarakter daşıyan şeirləri toplanmışdır. B-2700 şifrəli avtoqraf əsasən Azərbaycan və fars dillərində yazılmış aşiqanə qəzəllərdən ibarətdir. Cənnətinin iri həcmli avtoqraf əsərləri B-1199 şitfrəli ümumi dəftərdədir. Burada onun "Qız qalası", "Qılınc və qələm" poemaları, "Qurd və tülkü"



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

təmsili, “Bülbül”, “Kəhər at” və başqa əsərləri vardır. Yaradıcılığının ilk dövrlərində əsasən “Vasifi” təxəllüsü ilə yazdığı Azərbaycan və fars dillərində olan qəzəlləri isə M-152 şifrəli ümumi dəftərdədir. Avtoqrafların heç birində onların yazılış tarixi qeyd edilməmişdir”.

N.Qarayevin göstərdiyi şifrələrdən başqa, Əlyazmalar İnstitutunun xəzinəsində B-7791 şifrəsi altında Cənnətinin Salman Mümtaza müraciəti və şeirləri, B-1530 şifrəsi altında “Vasif”in şeirləri vardır ki, bunlar avtoqrafdır. D-760 şifrəsi altında isə Cənnətinin xeyli başqa əsərləri saxlanılır. Bunları Əlabbas Müznib müxtəlif mətbuat orqanlarından toplamışdır. Şeirlər qara və bənövşəyi mürəkkəblə makina vərəqlərinə və arxası şəkilli vərəqlərə yazılmışdır. Oxucuların sərəncamına verilən bu kitab həmin əlyazma əsasında nəşrə hazırlanmışdır.

İndiyədək N.Qarayev “Poetik məclislər” toplusunda, Cəfər Rəmzi “Deyilən söz yadigardır” və Məmməd Nuru oğlu “Azərbaycan qəzəlləri” kitablarında Cənnəti haqqında qısa məlumat və əsərlərindən nümunələr vermişlər.

Nəsrəddin Qarayev XIX əsrin poetik məclisləri ilə bağlı yazdığı dissertasiyasında Cənnətinin yaradıcılığını da dəyərləndirmiş, Ağabəy Əsgərov isə şairin yaradıcılığından ayrıca namizədlik işi yazmışdır.

Cənnəti elə zəngin ədəbi irs qoyub getmişdir ki, beş-on məqalə və bir-iki namizədlik dissertasiyası ilə onun yaradıcılığını tam işıqlandırmaq mümkün deyildir. Yəqin ki, zaman gələcək, Cənnəti yaradıcılığı daha müfəssəl şəkildə tədqiq olunacaqdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## HÜRRİYYƏT

Cərəs sədasımı, yoxsa fəğani-hürriyyət,
Yaxınlaşıbmı bizə karivani-hürriyyət?

Səvari-kəştiyi-Nuhi-həmiyyət biz açalım,
Hünər büruzə verüb badbani-hürriyyət.

Əgərçi vəhşivü sərgəştəvü rəxşi-istibdad,
Çəkər itaətə ani inani-hürriyyət.

Siyahçal əsarətdə qalma divsifət,
Mələk kibi tələb et asimani-hürriyyət.

Üruci-övci-səadət əgər muradın isə,
Ülüvvi himmətin et nərdibani-hürriyyət.

Deyilmi Rüstəmi-dəstan səfheyi-tarix,
O şirdil ki, oxur dastani-hürriyyət.

Ədalət ilə müsavat iki əlamətdir
Ki, zibduşi-bəşərdir nişani-hürriyyət.

Get, ey vəkili-cəmaət, Xuda müinin ola,
Gətir gələndə bizə ərməğani-hürriyyət.

Duayi-xeyrlə daim cənabına yarız,
Unutmarız səni, ey qədrdani-hürriyyət.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hə bir dua ilə, bil, canü mal ilə daim,
Səninlə biz də varız canfəşani-hürriyyət.

Cəhənnəmi demək övladu Cənnəti sana gər,
Binanın etməsə daim bəyani-hürriyyət.

*"Təkamül", № 7, 3 fevral 1907*

## HÜRRİYYƏT

Başında var isə şuri-şərabi-hürriyyət,
Qulaq ver, çala hər kim rübabi-hürriyyət.

Qəsuri-Qeysəri viranədən betər görürəm,
Ümumi-mərdümə açmazsa babi-hürriyyət.

Gözümə kül görünür misli-atəşi-Nəmrud,
Məşamə yetməsə buyi-gülabi-hürriyyət.

Adın mədrəsə qoymaqdan isə, cəhl evi qoy
O məktəbi ki, yox onda kitabi-hürriyyət.

Çirağı-səltənəti-müstəbidə misli-nücum
Sönər, tülu' edə gər afitabi-hürriyyət.

Yetişdi mənzili-məqsudinə sühulətlə
Kim oldu saliki-rahi-səvabi-hürriyyət.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nolur, əsirlərə çeşmi-mərhəmətlə baxa
O bəxtəvər ki, olub kamyabi-hürriyyət.

* * *

Könül, ta var əlində sağəri-sərşari-hürriyyət,
Şərabi-eyş nuş et, ta əlində var hürriyyət.

Başında varsa, sevdayi-səadət, nəqdi-can əldə,
Mətai-mə'rifət sat gərm ikən bazari-hürriyyət.

Xəyal etmə ki, dil mülkini istibdad edib viran,
Bir az müddətdə, bil, tə'mir edər me'mari-hürriyyət.

Suvarmış məmləkət gülzarını əhrar qanı ilə
Hökumət bağbanı, ta bitə əzhari-hürriyyət.

Günəş tək kəsbi-şöhrət eyləməzmi, olsa hər kimsə
Nizami-aləm içrə mətlə'i-ənvari-hürriyyət?

Müzəyyən eylər əlhəq səfheyi-tarixi təsviri
O kəs kim, dəhrdə baqi qoyar asari-hürriyyət.

Verir su məmləkət bağinə mərdüm qanlı yaş ilə,
Sola ibrət dirəxti, gər yetirsə bari-hürriyyət.

Cəvanlar almağa hürriyəti can ilə talibdir,
Məşayix bəs nə yüzdən eyləməz əfkari-hürriyyət!?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cəhan əhlinə hürriyyət “Təkamül” eyləmiş əta,
Nolur kim, Cənnəti yazsa ona əş’ari-hürriyyət!

*“Təkamül”, № 4, 11 yanvar 1907*

## BİNƏVALAR TƏRANƏSİ

Ta nəfəs var, ney kibi əfğanü fəryad eyləriz,
Ney kibi fəryad edib, aləmdə bir ad eyləriz,
Ahi-sərd ilə binayi-xəsmi bərbad eyləriz,
Bu təlaş ilə vətən mülkini abad eyləriz.

Ney nəvasi tək götürrüz şurə əhli-qeyrəti,
Sabit olsun ta cəhanə binəvalər qüdrəti.

Sanma kim, ney tək müqəvvayız və yaxud bir nəfəs,
Ya həva ilə dolubdur başımız çün bülhəvəs,
Hiç kəs olmazsa aləmdə bizə fəryadrəs,
Əhli-həqqiz, hu deyib dad eyləriz ta var nəfəs.

Bir tüyuriz biz ki, var atəşfəşan mənqarımız,
Səhv qıldım, adəmiz kim, lütfi-Həqdir yarımız.

Qabili-nəqşü nigarız, gərçi lövhi-sadəyiz,
Biz sənin zə’mindən artıq hər işə amadəyiz,
Müxtəsər azadəyiz, azadəyiz, azadəyiz.
……………………………………………



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İstəsən, aqil hesab et, istəsən, divanə tut,
İstəsən, atəş hesab et, istəsən, yəzdanə tut.

Əlqərəz, yanmaqla yandırmaq bərabərdir bizə,
Nari-suzan, şübhəsiz, bərgi-güli-tərdir bizə,
Zəhri-zülmün, müxtəsər söz, şəhdi-şəkkərdir bizə,
Kimsədən yox bakimiz, Həq yarü yavərdir bizə.

Əvvələn, insaf edib həqqi gözət, Allahə bax,
Yoxsa canından keçən dilxəstə cündüllahə bax.

Bəs ki, alihimmətiz, sultanlara naz eyləriz,
Bəxtimiz yar olsa, övci-ərşə pərvaz eyləriz,
Gah bülbül tək dəmadəm nəğmə ağaz eyləriz,
Xamədən Nil axıdıb izhari-e’caz eyləriz.

Qərq edib qibtiləri sallız həlakət bəhrinə,
Ta açılsın cadeyi-hərdəm səadət şəhrinə.

Çün çəkilmişdir cəhim üstə Siratəl-müstəqim,
Keç Sirati, ta açılsın babi-cənnatün-nəim,
Naümid olma bu qədr, ey sahibi-nəfsi-səlim,
Bəndəsin mə’yus qılmaz çün Xüdavəndi-kərim.

Cənnəti, Allahı yad et kim, odur müşkülgüşa,
Ondan istimdad edər hər haldə şahü gəda.

*“Təkamül”, № 8, 11 fevral 1907*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## ƏŞ'AR

Zindənam olmaq misali-Cəm fəqət bir cam ilən
Nəngdir, gər su kimi axmazsa qanın nam ilən.

Bəzm qurma, badəvü camü sürahidən demə,
Rəzmdən dəm ur dəmadəm, həmdəm ol səmsam ilən.

Kim ki, istisqayi-istibdadə olmuş mübtəla,
Su gərək vermək ona şəmşiri-xunaşam ilən.

Təxti-istibdaddən sultani-nəfsi yıxmağa
Əql tədbirilə iş görmək gərək aram ilən.

Rahi-hürriyyətdə ver başın, əsarətdən qutar,
Ad qazan, ömrün keçirmə möhnəti-əyyam ilən.

Ömr sürmək qeyrilər təhti-nüfuzində sana
Bir rəzalətdir ki, sığmaz bir yerə islam ilən.

Dözmə təhqirə, bulaş al qanə, qıl kəsbi-şərəf,
Sürxru ol, ta ki adın zikr ola ikram ilən.

Bəsdir, ey sultani-zilqədrü rəfi'ül-mənzilə,
Firqeyi-əhrari təhdid eylədin e'dam ilən.

Püxtəliklə xüfyələr qıldın tədarük xəlq üçün,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sikkələndirdin dənini bəzli-simi-xam ilən.

Kim ki, cövrünlə şəhid oldu, kəfənsiz dəfn edib,
Ərzələndirdin şəriri xəl'ətü ən'am ilən.

İstəyir şövkətli sultanım cənabından sənin,
Cənnəti ətayi-hürriyyət yüz istirham ilən.

*"Tazə həyat", № 91, 1907*

## HÜRRİYYƏTƏ XİTAB

*Tərkibbənd*

Ey afitabtəl'ət, əya qibleyi-ümən!
Ey nazənin şuxü nigarü səbukqədəm!
Nolur, məqdəminlə ola gülşəni-irəm
Külxənsifət xərabələr, ey sahibi-kərəm!

Mərdüm qübari-rahini qılmazsa tutiya,
Çeşmi-rəmidkəşidəsi nərdən bulur şəfa?

Ey qamətində gizli qiyamət əlaməti,
Zahir yüzündə rövzeyi-cənnət əlaməti,
Qürbündə aşikar səadət əlaməti,
Lə'lin təbəssümündə həlavət əlaməti.

Sənsiz cəhan nədir, deməli köhnə bir ribat,
Səndən cəhaniyanə yetər özgə bir nişat.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ey türreyi-müsəlsəli zənciri-əhli-hal,
Ey e'tidal qədilə bir türfə nonihal,
Qaşın müqabilində qədin əyməsə hilal,
Nur artırıb nə növ' ilə kəsb eyləyir kəmal?

Sən olmasan xəlayiqə gün kimi nurpaş,
Zülmət tutar cəhani, bizə təng olur məaş.

Nolur ki, yadbud edəsən dilşikəstəni?
Nolur, iyadət eyləyəsən zari-xəstəni?
Ölməz məriz, görsə qüdumi-xocəstəni,
Güldürdügicə sən o şəkərxəndə püstəni.

Dilmürdələr rəvanı içün şərbəti-həyat
Ömrincə zindədil keçirər ta dəmi-məmat.

Sənsiz qalınca qeydi-əsarətdə aşiqin,
Ömr eyləyincə məhbəsi-zillətdə aşiqin,
Fani olunca guşeyi-möhnətdə aşiqin,
Göstər yüzün ki, qalmaya zəhmətdə aşiqin.

Bir ömrdir, çəkər ələmi-intizarını,
Layiqdü, can fəda qıla görcək üzarını.

Hürriyyət, ey muradi-dili-daği-didəmiz!
Hürriyyət, ey ənisi-qülubi-rəmidəmiz!
Ey taqətü təvanımız, ey nuri-didəmiz,
Qurban ola qüduminə ruhi-pəridəmiz!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sənsiz cəhaniyanə məsərrət olub həram,
Sənsən o mey ki, nəş`əsi baqi olur müdam.

Mə’şuqeyi-zəmanəsən, ey yari-şuxü şəng,
Məhbubeyi-yeganəsən, ey dilbəri-qəşəng,
Nəqqaşi-sün` ruyinə bir növ’ abü rəng
Vermiş ki, vəsl camını nuş eyləyib firəng.

Alqışlayır qiyamətədək kəfzənan səni,
Hey, hey sevər ricaldən artıq zənan səni.

Hürriyyət olmasa, nədü məclis, nədir büsat?
Hürriyyət olmasa, hanı işrət, hanı nişat?
Ey tifli-sadədil, sənə layiqmidir qimat?
Ey şirxarə ağzına cari olur müxat.

Yox qüvvətin qəmatini çak etməyə sənin,
Yox qüdrətin dimağını pak etməyə sənin.

Rənci-əsarəti, könül, üftadələr bilir,
Zəhmət nədir desən, onu dildadələr bilir,
Əmniyyətin səfasını dilsadələr bilir,
Ləzzət nə olduğun hamı azadələr bilir.

Azadəsən, sənin nə qəmin vardu, Cənnəti?
Azadələrlə etməlisən daim ülfəti.

*“Tazə həyat”, № 116, 23 may 1908*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## TƏHNİYƏTİ-EYDİ-MÖVLUD

*Füzulidən təzmin*

Doğdu gün, saldı işıq aləmə mövludi-Nəbi,
Qoydu dünyayə qədəm yə'ni Rəsuli-ərəbi.

Kə'bə bamindən enib bu gecə tağutü Həbəl,
Taği-Kəsrayə düşüb bu gecə asibü xələl,
Atəşi-Pars sönüb, Savə olubdur əsfəl,
İlləti-qai edübdür səni Xəllaqi-əzəl,
"Ey vücudin əsəri xilqəti-əşya səbəbi".

Dəmbədəm xəlqə yetir feyzi-səxavü cudun,
Rəhməti-aləm olubdur qədəmi-məs'udun,
Aləmi-ünsdə hərçənd olub mövludun,
Leyk batində səni xəlq eləyüb mə'bədun,
"Nəbi ol vəqt ki, bilfe'l gərəkməzdi Nəbi".

Verdi fəyyazi-əzəl xəlqə səadət bu gecə,
Zülməti-cəhl basıb nuri-hidayət bu gecə,
Görünüb bir neçə e'cazi-kəramət bu gecə,
Qoydu dünyayə qədəm xətmi-risalət bu gecə,
"Haşimiyyü, qüreşiyyü, mədəniyyü, ərəbi".



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İlləti-qaiyi-məcmueyi-aləm sənsən,
Baisi-xilqəti-zürriyyeyi-Adəm sənsən,
Hərəmi-qürbi-üluhiyyətə məhrəm sənsən,
Ənbiya firqəsinə əvvəlü xatəm sənsən,
"Şərəfi-əsl ilə fihristi-rüsul müntəxəbi".

Kim ki, damanini tutsa, tapacaq rahi-nicat,
Nuri-şövqün eləyür mərdümə rəf'i-zülümat,
Cami-şər'indən içən sanki içər abi-həyat,
Şər'inə münkir olan kimsələrin vəqti-məmat,
"Yetmədi mənzili-məqsudə təriqi-tələbi".

Hansı peyğəmbər olub sən kibi alihimmət?
Yox təməddündə sənə eyləyən əsla sibqət,
Yüz verir mərdümə asarini görcək heyrət,
Səndən özgə kimə, aya, bu şərəfdir qismət,
"Adəmə vəchi-mübahat ola izzü nəsəbi".

Eylədin aləmara beydəqi-islami ələm,
Çəkdi hökmün kütübi-sayiri-ədyanə qələm,
Şər'i-pakindü təməddündə əsasi-möhkəm,
Eylədin dinini "əkməltü"* ilə müstəhkəm,
"Cəələllahü fədaən ləkə ümmi və əbi".**

Müstəfadır açan ümmət yüzinə babi-ülum,

* …Mükəmməl etdim… (Maidə, 3)
** Allah ata-anamı sənə fəda etsin!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu peyəmbərdir edən elmi-vücudi mə’lum,
Cənnəti, şafe’imizdir bu Nəbiyyi-mə’sum,
“Ya Nəbi, qılma Füzulini qapından məhrum,
Əfv qıl, var isə dərgahdə tərki-ədəbi”.

*“Tazə həyat”, 1907, № 11*

## ƏZİZ DOSTUM MÜZNİB CƏNABLARINA NƏZİRƏ

Haçan millətdən ötrü eyləsəm iksir amadə,
İşin tərs olduğun gör kim, gəlib meymun düşər yadə.

Haçan kim pişrəfti-millət üçün bir yol axtarsam,
Olur bərpa qiyamət, qar yağar, münsədd olur cadə.

Deyərsəm qurtarım bu milləti qeydi-əsarətdən,
Rəqibi-bimürüvvət göstərir zəncirü qəlladə.

Dilimi kəsmək istər, odlara yaxmaq dilər zalim,
Deyirsəm, ey ağa, bir dəm ayıl, millət gedir badə.
Çıxar yüz nəqş ilə sair miləl meydanə, bax cəhlə,
Dəyişməz vəz’ini bir zərrəcə bu milləti-sadə.

Qadın tək dəsti-zalimdən xilas etməz gəribanın,
Qarındaşını məhv etməkdə bənzər qanlı cəlladə.

El üçün ağlayan gözdən, demişlər, kur olur axır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əzəldən kur imiş el qüssəsindən gəlməyən dadə.

Ümidin kəssə hər kəs öz elindən, bikifayətdir,
Kifayətsizlər ümmidindəyiz, Həq yetsin imdadə.

Atan mirasını böl qardaşınla, Cənnəti, yoxsa
Bölər qonşu dəxi, malik deyilsən onda bir zadə.

*"İqbal", № 559, 22 yanvar 1914*

* * *

Hər kimin kim, çeşmi-insafın qərəz kur eyləmiş,
Bimürüvvət duz qatıb xəlqin aşın şur eyləmiş.

Mən' qılmış mərdümi elmü məarifdən həsud,
Gözləri çıxsın ki, xəlqin didəsin kur eyləmiş.

Öz bəni-növ'ini tərğib eyləmiş nadanlığa,
Elmü əxlaqü ədəbdən qalibən dur eyləmiş.

Əcnəbilər eyləmiş kəsbi-təməddün gör necə,
Fəzlü daniş sayəsində dəhri mə'mur eyləmiş.

Var əgərçi axirətdə cənnətü hurü qəsur,
Leyk anınçün bəratın şeyx məmhur eyləmiş.

Kəsbi-sərvət, vaizin zə'mincə, bir işdir əbəs,
Həq bizi ancaq səlatü sövmə mə'mur eyləmiş.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həqqdən qafildir əzbəs, anlamaz elmi-hüquq,
El gözündə Həqq onu oldur ki, mənfur eyləmiş.
Gər deyirsəm çirkdir əmmaməsi, təkfir edər,
Gör necə şeytan o biidraki məğrur eyləmiş.

Daşkəsən oğlu, bu qövmi-səngdildən əl götür
Kim, bu mərdüm mişkini təbdili-kafur eyləmiş.

*"İqbal", № 570, 5 fevral 1914*

* * *

Söz aça qamətindən, ey qələmqamət, qiyamətdir,
Qaşın tərh et, hilalın rö'yəti nikü əlamətdir.

Danışma zülfdən, divanəyə zəncir göstərmə
Ki, bir əf'i ilandır bu, nə zəncirə əlamətdir.

Gözün süzdürmə, gərçi zahirən ahuyə çox bənzər,
Bu kərkük pişəsi imanü dinü cani qarətdir.

Dəhanın yox demə kim, nüktədan çoxdur vilayətdə,
Sözi vardır, özi yoxdur, demək mühməl ibarətdir.

Adı vardır, özi yoxdur dedinmi, indi fəhm etdim,
Bizim bu milləti-nadanə nazik bir işarətdir.

Bizə qamçı gərəkdir, söyləmişdi həzrəti-vala,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu tənbihi bir az insan üçün, derlər, həqarətdir.

Həqarət anlasaydıq gər, nədir, çoxdan ayılmışdıq,
Ayılsaydın, deməzdilər, səninçün bikifayətdir.

Bizə var dörd qəvi düşmən, desən: kimlər? deyim, öyrən:
Cəhalətdir, cəhalətdir, cəhalətdir, cəhalətdir!

Uzatma çox sözü, ey Cənnəti, bildim, nə mətləbdir,
Bizə məktəb gərək kim, babi-təhsili-səadətdir.

*"İqbal", № 572, 7 fevral 1914*

## MƏNSUR CƏNABLARINA NƏZİRƏ DEYİL, CAVABDIR

Kaseyi-çeşmim, görüm, ləbrizi-xun olsun çü cam,
Verdiyin meydən əgər mərdüm deyilsə təlxkam.

Ey könül, tir ilə tirəndazi bilmək istəyən
Şərbəti-mayəxmərül-əqli gərək bilsin həram.

Məsti-qəflət olmayan meyxarə tək çəkməz xumar,
Huşi başında olan aqil çığırmaz sübhü şam.

Urmasaydı əqli-danişvər licami-tərbiyət,
Nəfsi-sərkeş tövsənin etməzdi hiç bir qüvvə ram.

Xar vəslin əndəlib əfğanın almaz guşinə,
Əxz edər gül ətrini hikmət bilən gülçin müdam.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Zülməti dəf’ etməyə məktəb çırağın yandırıb,
Eyləriz rövşən həyatın səhnəsin çün simi-xam.

Layiqi-təqdir, ya tənqid bilmək cahili,
Eybdir əhli-kəmalə, müxtəsər söz, vəssəlam.

Nurbaran eyləmiş xurşidi-məktəb yer yüzün,
Çün yağıb barani-rəhmət, biz tərəf olmuş zülam.

Əmrü nəhyü hüsnü qübhi əqldir təşxis edən,
Əqlsizlərçün əbəsdir bu təkalifü nizam.

Hansı divanə edib icad simi-telqraf?
Hansı məcnundur cəmadə öyrədən elmi-kəlam?

Etmə inkar bədihi, aç gözün, bir huşə gəl,
Cayi-ləğzişdir, əzizim, xeyli-nazikdir məqam.

Əqli inkar eyləyən kəs bibəsərdir, Cənnəti,
Bibəsər, aya, işarat ilə anlarmı məram?

*“İqbal”, № 574, 10 fevral 1914*

* * *

Səhər çayım, nəhar nanü penir, axşama bozbaşım,
Dəxi dərdim nədir, aya, az aşım, ağrımaz başım.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə düşmüşdür mənə el qayğısın, millət qəmin çəkmək,
Mənim qarnım gərək tox, ac-susuz can versə qardaşım.

Nə lazımdır mənə ətfali-millət məktəbə getsin,
Varıb açıl başımdan, doxsanı keçmiş mənim yaşım.

Soyuqdan donsa gər eytami-millət, məndəmi nöqsan?
Mənim düzdür işim, hər bir cəhətdən istidir aşım.

Mənim ki, yox işim səndə, məni öz halimə tərk et,
Gözüm çıxsa, nolur canım, düzəldərkən mənim qaşım.

Mənə bitərbiyət dersən, kimə məndən zərər yetmiş,
Nə bir kəslə işim yoxdur, nə bir adəmlə pərxaşım.

Tutaq var milyonum, zur iləmi aldım xəlayiqdən,
Nə zəhmətlər çəkib yığdım, dəyib daşdan-daşa başım.

Onu xərc etməyə cür'ətmi vardır məndə, insaf et!
Qara puldur mənim həm millətim, həm yarü yoldaşım.

Bu vəqtimdə məni, ey Cənnəti, gəl həccə göndərmə,
Rizayi-Həqq üçün böylə uzaq atma mənim daşım.

*"İqbal", № 575, 12 fevral 1914*

## İNTİBAH

Söz ki, düz olmaya məntiqi ilə məfhumi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

O sözün naziminə əhməqü əbləh deməli.

Duza buz, qarpuza qoz, düz yerə xəndək deyilib,
Biri əyri, biri artıq, biri kutəh deməli.
Sən kimi arifə, həm mən kimi bir sadədilə,
Afərinlər oxuyub, yüz kərə pəh-pəh deməli.

Hıqqanıb bir-iki söz də yaza bilməm, ya Rəb,
Mənə mairmi, və ya şairi-gümrəh deməli.

*"İqbal", № 581, 18 fevral 1914*

## QƏLƏM

Əsri-hazırda deyil, heyf ki, azad qələm,
Yoxsa minlərcə edər mö'cüzə icad qələm.

İçsə bir cür'ə əgər çeşmeyi-hürriyyətdən,
Dost üçün şəhd yapar, düşmən üçün "yad" qələm.

Demə vəhşiləri islah eləmək müşküldür,
Mədrəsə əhlini hətta edər irşad qələm.

Xəlqi irşad eləməgmiş, görünür, məqsudi,
Həzrəti-cəlli-əla eyləmiş icad qələm.

Sərfdə, nəhvdə, məntiqdə hünər sahibidir,
Elmdə cümlə müəllimlərə ustad qələm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mərdümə dərs verir cümlə keçən tarixi,
Qisseyi-həzrəti-İdrisi edər yad qələm.

Bisütundan səri-naxüncə əsər qoymaz idi,
Əvəzi-tişə alaydı ələ Fərhad qələm.

Sabiqən neydən idi xamə, tökərdi şəkkər,
Qan tökər tiğ kimi indi də fulad qələm.

Cənnəti mətləbi tə'bir ilə tövzih edəməz,
Ona gər etməsə təhrir ilə imdad qələm.

*"Dirilik", 16 oktyabr 1914*

**QƏLƏM**

Halım görüb dilərsə edə şərhi-qəm qələm,
Ney tək fəğanü nalə edər dəmbədəm qələm.

İqbalə bax ki, istər ikən vəsfi-hal edim,
Həm kağız ar edər səri-dəstimdə, həm qələm.

Dil yoxdur, ol nigarə qılım şərh dərdimi,
Bari usanma şərhdən, ey möhtərəm qələm!

Dil söylər olsa hər sözü, mütləq həva olur,
Sabit durar xəyalə, əgər ursa dəm qələm.

Əhvali-hali-mazini müstəqbələ verər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ayineyi-Skəndərdir cami-Cəm qələm.

Övcü həzizü qeybü şühudi edər bəyan,
Sövti-səriri başlaya gər zirü bəm qələm.

İslamə yetcək ağladı, oldu siyahpuş,
Meyl etmiş idi yazmağa hali-ümən qələm.

Könlümdə dərdü möhnəti-xülya o qədridir,
Atəş tutub zəbanə çəkər, gər desəm, qələm.

Tutduqda xamə tərk qılarsa nəzakəti,
Barmaqlari anə tik, olsun qələm-qələm.

*"İqbal", № 475, 3 oktyabr 1913*

## TOPRAQ

Toprağə xar baxma, gözətlə rəhi-ədəb,
Bu xaki-pakdır sənə, ey xacə, ümmü əb.

Ümmü əbinə xar baxan bədgühərləri,
Bişəkkü şübhə, bir gün olur kim, tutar qəzəb.
Yalnız ata-ana demə bir dayədir sənə,
Bəslər səni məhəbbəti-müfritlə ruzü şəb.

Məlbusü əklü şürbini hazırlayır müdam,
Ta yetməsin vücudinə mümkün qədər təəb.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gah qoşdurur dəyirmanə buğdanı sinəçak,
Gah təbx üçün olur sənə həmmalətül-hətəb.

Gahi əta qılır sənə ənvai-meyvəcat,
Armudü tut, almavü əncir ilə inəb.

Gəh bərgi-tuti cisminə eylər ipək libas,
Gahi kətanü pənbə, gəhi bəsləyir qənəb.

Hətta ölən zəmanda basar bağrına səni,
Guya ki, əhli-eşq qucar yari-nuşləb.

Bir müştdür nümuneyi-xərvar, yoxsa kim,
Tə'dadi-hər hüquqini vicdan edər tələb.

Əcdadının türabını satmaq rəva deyil,
Vacibdir əhli-qeyrətə hifzi vəcəb-vəcəb.

Kim yer satırsa, irzini-namusunu satır,
İstər tatarü türk ola, ya farsü ya ərəb.

Mülkün satanları desə hərgah, Cənnəti,
Biarü bədsiriştü dənidir, deyil əcəb.

*"İqbal", № 585, 23 fevral 1914*

## TOPRAQ

*Tərcibənd*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Torpağə mənim tək hanı bir aşiqi-müştaq,
Müştaqlığım el gözünə görsənir iqraq,
Səbrim tükənib, taqətü aramım olub taq,
Titrər ürəyim sanki əsər şaxədə yapraq,
Hər dəm salıram sineyi-sədçakimə dırnaq,
Dağ üzrə çəkib də, ataram köksümə qaynaq.

Bu şivənü fəryadı əbəs qılmayır üşşaq,
Topraq satanın çeşminə olsun qara topraq!

Bicamı çocuq daimi topraq ilə oynar,
Topraq tanımaqdır kişinin əqlinə me'yar,
Bu oynamağın gizlicə bir hikməti həm var,
Gər bilməmisən, guş elə ta eyləyim izhar,
Həm mənşəini, mərcə'ini tifl ikən anlar,
Topraqdan əgər qaldırasan, şur ilə ağlar.

Bu şivənü fəryadı əbəs qılmayır üşşaq,
Topraq satanın çeşminə olsun qara topraq!

Biz adəmiyiz, xak bizə xüldi-bərindir,
Ləbtəşnələrə çeşmələri mai-müindir,
Bu ərzi-müqəddəs ki, bunun adı zəmindir,
Peyğəmbəri-ümmi bu türab içrə dəfindir,
Zənni deyil ərz eylədiyim, elmi-yəqindir,
Kim ki, vətənin hifz eləməz, düşməni-dindir.

Bu şivənü fəryadı əbəs qılmayır üşşaq,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Topraq satanın çeşminə olsun qara topraq!

Bu ərzi-girami bizədir daimi mün'im,
İnkar edəməz ne'mətini kafirü müslim.
Heyfa ki, onun qəddinə kimsə deyil alim.
………………………………………………
Bu sadə sözü fəhm elə, təfsil nə lazim,
Türki sözə lazımmı məgər bir də mütərcim?

Bu şivənü fəryadı əbəs qılmayır üşşaq,
Topraq satanın çeşminə olsun qara topraq!

Ey səcdə qılan xakə, nədir bu hərəkatın,
İman ki yoxun, başına dəysin bu səlatın,
Ey türk! Vətən tərki qılar qət'i-həyatın,
Məhməl olur ol dəm hərəkatü səkənatın,
Birdir vətənin, getsə həyat ilə məmatın,
Təlqin oxuyur, Cənnəti, həngami-vəfatın.

Bu şivənü fəryadı əbəs qılmayır üşşaq,
Topraq satanın çeşminə olsun qara topraq!

*"İqbal", № 595, 6 mart 1914*

## HİLAL İMİŞ

Qaşın kəman güman eləmişdim, hilal imiş,
Mərdüm çibin xəyal eləyən nöqtə, xal imiş.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xəttin kitabı həll elədi hər məsaili,
Fiqhü üsul elm isə də, qiylü qal imiş.

Elmi-əruzə sərf elədim nəqd ömrümü,
Sandım kəmaldır, demə, vizrü vəbal imiş.

Zurna səsilə kim ki, uyub xabi-qəflətə,
Şeypur naləsilə oyatmaq məhal imiş.

Əğyarı çibin çeşmimizə şir göstərir,
Əhli-hünər gözündə misali-şəğal imiş.

Təb'im quşu pər açmış idi övcə uçmağa,
Pərvaz qılmadı, deyəsən, bəstəbal imiş.

Şər'ən həramdır meyi-gülgun xilafsız,
Gər şəhdi-əngəbin qatılırsa, həlal imiş.

Şürbü şərab Xaliqə xoş gəlməyən kibi,
Xəlqin yanında da səbəbi-infial imiş.
Nə zöhdə bağlıdır, nə də fisqə səadətin,
Cənnət qapısının açarı e'tidal imiş.

Elmü hünər, kəmalü ədəb, fəzlü mə'rifət,
Bunlar təmamisi niəmi-bizəval imiş.

Tənqid edəndə də yaxşı-yaman gözət,
Zöhd əhlinin də bir parası əhli-hal imiş.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Atdı oxunu, yayını gizlətdi Cənnəti,
Hərgəh cəbun deyilsə də biçarə, lal imiş.

*“İqbal”, №  610, 26 mart 1914*

* * *

Hər ol kəs ki, olub bir qarğısaç dildar dilbəndi,
Olur hər bir nəfəs, ney tək nəvalər qılsa hər bəndi.

Xəti-reyhan ilə hüsnün kitabında yazılmış kim,
Bu Qur’an eyləmiş mənsux hökmi-zəndü pazəndi.

Xətü xalın nükatın fəhm edən arif bilir ancaq,
Nə hikmət üzrə məbnidir rümuzati-səcavəndi.

Ləbin zövqün bilən tərk eyləməzmi badeyi-nabi?
Sözün şəhdin dadan sanmazmı acı, tə’mi-gülqəndi?

Amandır, tə’nə daşilə mənim könlümü sındırma
Ki, müşküldür, həbibim, sınsa hərgah şişə, peyvəndi.

Mənə bədguluq etsə gər rəqibim, incimənm, çünki
Nə mən Firdovsiyi-əsrəm, nə ol biürzə Meyməndi.

Sərasər aləm olsa düşmənim, bak etməzəm əsla,
Əta qılmış mənə bir qüvvə iltafi-Xudavəndi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cəhalət rişəsin qırmaq çətindir, səhldir əmma
Qoparmaq naxun ilə kuhi-Əlbürzü Dəmavəndi.
Açılsın başımızdan leyliveşlər zülfi-sevdası
Ki, zənciri-əsarət eyləyər məcnun xirədməndi.

Kişi gər çox bilirsə, az danışmaq iqtiza eylər,
Fəramuş etmə, ey fərzənd, ustadın verən pəndi.

Nolur, qəhqah edəndə şişeyi-minanı sındırsan,
Gül üzlü, qönçələb, şirinsüxən, yari-şəkərxəndi.

Ürəkdə şahidi-hürriyyəti alqışlayır daim,
“Siyəhçeşmani-Kəşmirivü türkani-Səmərqəndi”.

Mənim mə’şuqeyi-məhbubəmin adı həqiqətdir,
Nə var mən kimi bir aşiq, nə anın mislü manəndi.

Xələf övladdır, ey Cənnəti, əş’ar həbs etmə,
Xəyalın xanəsində cürmsiz bu şux fərzəndi.

*“İqbal”, № 642, 2 may 1914*

## AQÇA

Aqça kəsb et, istəsən hərgah izzü ehtiram,
Aqçasız xud olsa sultan, yeydir ondan bir qulam.

Kim ki, müflisdir, onun yox e’tibari, izzəti,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aqçasız mahini etmiş şər'i-Peyğəmbər həram.

Aqçasızlar xardır, murdarü bilmiqdardır,
Aqça miqdarıncadır qədrin, əzizim, vəssəlam!

Sikkəsizdir, abirusuzdur, şərəfsizdir, zəlil,
Mərdi-danişməndi-müflis çeşmi-mərdümdə müdam.

Zər kimi kamil əyar olmaq zəhəb kəsbilədir,
Yox filizzat içrə altundan səva vəzni təmam.

Müflisə məclisdə hərgiz kimsə qılmaz e'tina,
Əhli-məclis bir qəni görcək, hamı eylər qiyam.

Kəsbi-nəngü nam üçün qılma əziz ömrün tələf,
Simü zər kəsbinə sərf et ömrünü, ol niknam.

Kim fəqir olsa, həmişə mərdümə möhtac olur,
Püxtələr namərdü nakəsdən dilərmi simi-xam?

Cənnəti, bu pəndi-piranən mənə versə səmər,
Zikri-xeyrin eylərəm azadələr tək sübhü şam.

*"Dirilik", 1 fevral 1916*

## MÜRƏTTİBLƏR

Edirlər rahi-mətbuatə vəqfi-can mürəttiblər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çəkərlər rəncü zəhmət, xadimi-ürfan mürəttiblər.

Düzürlər lövhə üzrə daima qurşun hürufatı,
Nizam əhli kimi zəhmətdədir hər an mürəttiblər.

Tənəffüs eyləyirlər mətbəə əczasının zəhrin,
Olurlar mübtəlayi-dərdi-bidərman mürəttiblər.

Çoxu mədquq, ya məslul, ya məsmum olur bişək,
Məarif nəşrinə canlar qılır qurban mürəttiblər.

Hürufi-əsrəbi tərtib ilə düzdükdə rüxsarə,
Axıtmazmı gözündən lö’lövü mərcan mürəttiblər?

Əgər bir kəlmə də səhv etsələr, ərbabi-zalimdən
Görərlər minlər ilə tə’nəvü tüğyan mürəttiblər.

Hünər izhar qıldıqda, vəli, təhsin eşitməzlər,
Görülmüb kim, görə ərbabdən ehsan mürəttiblər.

Salar bir həftə hərfində kitabı nəzmü tərtibə,
Əgər ərbabdən sadir ola fərman, mürəttiblər.

Qələm söz türrəsin açmaqda çox işkalə uğrardı,
Bu müşkül əmri qılmış, Cənnəti, asan mürəttiblər.

*“Dirilik”, 17 fevral 1916*

**MƏRHUM HAŞIM BƏYİN**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## RUHUNU TƏRVİH

Mərhəba, ey ədibi-danişmənd,
Mürdəni zində eylədi qələmin.
Millәti etdi xidmətin xürsənd,
Daniş artırdı xəlqə zirü bəmin.

Borcunu eylədin həyatında
Sən əda, ey rəfiqi-xoşməşrəb.
Qaldı əmma dəmi-məmatında,
Heyf, könlündə bir uzun mətləb.

Bilmədin millətin sərəncamın,
Nigaranlıqla eylədin rehlət.
Çərx içirtdi sənə əcəl camın,
Türfətül-eyn vermədi fürsət.

Çəkdiyin zəhmətin gedərmi hədər,
Haşalillah, yüz kərə haşa!
Əməlin nəxli tezlik ilə səmər
Verər, əlbəttə, qəm yemə əsla.

Bu cəhanə gələn kişi gedəcək,
Bunu tarix edib bizə isbat.
Hər gələn əslinə rücu' edəcək,
Bir də övd edə, heyhat!

Sən edib öz vəzifəni ifa,
Rəhməti-Həqqə olmusan vasil.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İndi rahət yat, ey rəfiq, səfa
Karvanına bağla tez məhmil.

Yetişər tezlik ilə ceyşi-bəhar,
Beydəqi-sərvini açar pərçəm.
Rəşki-bağı-behişt olur gülzar,
Çün irəmi-aləmi edər xürrəm.

Aşinalər gəlib ziyarətinə,
Yetirər müjdeyi-bəhari sənə.
Gül saçıb əhli-zövq türbətinə,
Bağı-cənnət qılar məzarı sənə.

Millətin ruhini etmisən ehya,
Açmısan el üzünə babi-murad.
Bizdə yoxdur əvəz biqeyri-dua,
Ruhin olsun həmişə xürrəmü şad.

Cənnəti, millətə edən xidmət,
Olar aləmdə zindəvü cavid.
Qazanar zikri-xeyr ilə rəhmət,
Mərdi-fəalü pakbazü səid.

*"Dirilik", 22 mart 1916*

## TƏRKİBBƏND

*Mikayıl Seydinin ruhinə tərhim*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Keçdi yay mövsimi, dövrüni dəyişdi dövran,
Fəsl döndükdə səmumi-qəmü dərd oldu vəzan,
Gülşəni külxən edib əhli-dilə badi-xəzan,
Bülbülasa əcəb olmaz, rüfəqa etsə fəğan

Ki, əsib badi-xəzan gülşəni-amalımıza,
Yetib afati-zəman şaxeyi-iqbalımıza.

Getdi, yoldaş qəmi yar oldu bizə, va əsəfa,
Ruzi-rövşən şəbi-tar oldu bizə, va əsəfa,
Şivənü nalə şüar oldu bizə, va əsəfa,
Künci-qəm dari-diyar oldu bizə, va səfa.

Seyli-möhnət başımızdan, əcəba, aşmazmı?
Mövc urub bəhr kimi lücceyi-qəm daşmazmı?

Sənsiz olmuş bizə məsdud dəri-eyşü tərəb,
Eyşü nuş eyləsə matəmzədə olmazmı əcəb?
Firqətindir bu hamı möhnətü ənduhə səbəb,
İşrətə dalsaq əgər gözləməyib rəsmi-ədəb.

Cami-çeşmim kimi qan ilə dola sağərü rah,
Rövhi pəjmürdə qılar nəğmeyi-ruhül-ərvah.

Ta ki, bu günbədi-əflak edəcək gərdişü seyr,
Ta təəyyüş edəcək badiyədə vəhşivü teyr,
Ta ki çarpar nəzərə məscidü meyxanəvü deyr,
Edəcək zikrini mərdüm, deyəcək yad bəxeyr.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Seydiya, ruhun ola rövzeyi-rizvanda rəvan,
Necə kim zində üruqində edər qan dövran.

Ey xoş ol gün ki, bizimlə edər idin söhbət,
Söhbətindən dili-dana apardı ləzzət,
Ahü əfsus ki, didarına qoydu həsrət
Bizi bu zəlli-kühənsalü fənaxasiyyət.

Görəlim xanəsi könlüm kimi olsun viran,
Azdırıb gərdişini daim ola sərgərdan.

Qalacaq zində fəna dəhrdə namın, Seydi,
Bizə sərməşq olacaq tərzi-kəlamın, Seydi,
Buyi-rəhmət ala qəbr içrə məşamın, Seydi,
Ziri-Tuba ola cənnətdə məqamın, Seydi.

Cənnəti sübhü məsa ruhuna rəhmətxandır,
Rəhməti-Həq sənə zeybində sənə şayandır.

*"Dirilik", 1 noyabr 1916*

## KEYFİYYƏTİ-HAL

Dərdü qəm şərhinə gər verməz isə çərx məcal,
Qəm deyil, faş olacaq ah ilə keyfiyyəti-hal.

Kimsə dünyada dirəxti-əməlin meyvəsini
Dadmamış, eyləmə gəl arizuyi-əmri-məhal.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nəzərində, məsələn, cilvələnən Kövsər isə,
Ey mübəssər, onu sən misli-sərab eylə xəyal.

Ey oğul, sözlərimi guşinə al, qədrin bil,
Bəhri-ümmanda sədəf bəsləməmiş böylə ləal.

Zahidin qismətidir sirkə, həkimin – meyi-nab,
Hər kəs öz qismətini bilmədədir pakü həlal.

Nəqd sirkə bizədir nisyə əsəldən şirin, -
Kim desə, öp dodağın, şəhdü şəkərdir bu məqal.

Bu günün əmrini fərdayə qoyarmı aqil?
Bir günün fövtə verən qan udacaqdır məhü sal.

Üfüqi-taleyi gözlə rəməzan ayində,
Əyilüb əbr, hilal eyləyə ta ərzi-cəmal.

Arizu bağinə su şəhdi-ümid ilə verər,
Cənnəti, şayədü bayəd bula bir turş zoğal.

*“Dirilik”, 1 iyul 1915*

* * *

Zəlilin tutmayan dəstin əzizü ərcümənd olmaz,
Təvazö’pişə hər kəs olmaz isə, sərbülənd olmaz.

Desən gərdi-səməndindən qübaralud olub ruyin,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xəti-reyhan nigara böylə nazik rişxənd olmaz.
Dəhanın varlığından söhbət açmaq küfrdür, əlhəq,
Söz açmaq nöqteyi-mövhumdən biçunü çənd olmaz.

Nəzakət əhli istər mu miyanın qucmağın, əmma
Qucar bir boş həvanı, kimsənin əngüşti bənd olmaz.

Ləbindən söhbət açdı ney qələm, mənqari-tuti tək,
Şəkərriz oldu, səd əhsən, bu şirinlikdə qənd olmaz.

Olublar şirdillər həlqeyi-zülfün giriftarı,
Əcəb dami-bəladır, bir belə möhkəm kəmənd olmaz.

Ləbin sorduqda dərd əhlinə dərmandır, dedin, ey can,
Həbibim, canın üçün mən kimi bir dərdmənd olmaz.

Könül mürği dilər kim, əqdi-zülfün aşiyan etsin,
Bu sevdadan götürməz əl, belə müşkül pəsənd olmaz.

Hünər meydanını cövlan edər bir neysəvarəm kim,
Hərifim Cənnətidən qeyri bir sahibsəmənd olmaz.

*"Dirilik", 1 sentyabr 1914*

## QƏLƏM

Allah-Allah, təb'imi su tək rəvan eylər qələm,
Vəh nə mö'cüzdür bu kim, piri cəvan eylər qələm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Müxtəsər bir söhbət olsa şairə gər guşzəd,
Ani təfsilən yazıb bir dasitan eylər qələm.

Səffeyi-qirtasə saçdıqda çü mərdüm nüqtələr,
Mərdümi-rəmzaşinanı nüktədan eylər qələm.

Qönçələb cananı şirin sözlərilə güldürüb,
Nöqteyi-mövhum təqsimin əyan eylər qələm.

Gər rikabında bətiyüs-seyr ola əsbi-bənan,
Təb'i-sərkeş birlə təhriki-inan eylər qələm.

Ruzü şəb birdir ona mərdi-siyasidan kimi,
Tövsəni-fikrini hər səmtə rəvan eylər qələm.

Eyləsə sahibqələm hərgah müraati-ədəb,
İşlədikcə onun üçün kəşfi-şah eylər qələm.

Gər səhiqədlər miyanında ona yer olmasa,
İncədir, mu tək özünü dərmiyan eylər qələm.

Cənnətinin var isə lüknət dilində, mətləbin
Natiqi-rətbəl-lisanasa bəyan eylər qələm.

*"Dirilik", 14 mart 1915*

## BƏNZƏTMƏK OLMAZ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ləbin keyfiyyətin bənzətmək olmaz abi-əngurə,
Gətirməz badə şəxsi lə'li-şirinin kimi şurə.

Buraxmış mülki-Çini, sanasan, Məcnun olub xaqan,
Qıl, ey leyliveşim, geysulərin zənciri-fəğfurə.

Qübari-xətmi qonmuş səfheyi-ruyinə Cəmşidin,
Süleyman mülki ya ki məskən olmuş ləşkəri-murə.

Tələvvün hər kimin olsa məcazında, deyil sultan,
Yaraşır taci-dövlət əzmi sabit bir sələhşurə.

Fəsadi-mülki-həhrirdənsə yandır rişəsin çün kim,
Ətibba dağilə eylər müdava zəxmi-nasurə.

İmarət, məmləkət hifzinə bir səddi-Skəndər ol,
Təm' çeşmilə baxmaz kimsə hərgiz mülki-mə'murə.

Vətən Məcnununa zənciri-ədlin göstərmə, ey Kəsra,
Baş əymək əcnəbi fərmanına müşküldü məhcurə.
Açıb ibrət gözün bir səfheyi-tarixə bax bari,
Əgərçi bəhrə verməz sürmə çəkmək çeşmi-binurə.

Cəhanı fəth qılmaq istəsən, miftahi mümkündür,
Səba, bu ərzimi nolur yetirsən guşi-Şapurə.

Mücərrəbdir dəbistan, mərdi-meydan elər ətfalı,
Mədaris bəxş edər nitqü bəsirət əbkəmü kurə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məkatib şəlğəmi-bitə’mi eylər şəkkər-şirin,
Necə kim, tərbiyətlə badeyi-gülfam olur qurə.

Sədarət əmrini tapşırma hər əclafi-biməğzə
Ki, satsın irzü namusunu xəlqin məğzi-əsfurə.

Zimami-mülki təslim eyləsən namərdə, sərf eylər
Vətən məhsulini təhsili-mahiyi-səqənqurə.

Xəyali-xal fikri-türreyi-şəbrəng ilə eylər
Rəayanın xəti-mişkinini təbdili-kafurə.

Zərü zur olmasa, isbati-Həq, həqqa ki, müşküldür
Ki, istirdadi-həqq vabəstədir, əlhəq, zərü zurə.

Dəfü tənburü sazə kəfzən olmaq şiveyi-zəndir,
İgitlər kimi can ver kərənayü təblü şeypurə.

Siyasət naləsi, ey Cənnəti, Qur’ani-münzəldir
Ki, hikmətdir sərasər, ayə-ayə, surəbəsurə.

*“Dirilik”, 14 fevral 1915*

## VƏTƏN TƏRANƏSİ

Əl çəkməyəlim düşməni-əhrimənimizdən,
Ta qul kimi icz ilə tuta damənimizdən.

Xəncər kimi çıxmazmı vətən hifzi yolunda,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əbdanımızın tükləri pirahənimizdən.
Mənqari Səməndər quşu tək yağdırır atəş,
Düşmən deyil eymən qələmi-ahənimizdən.

Güllər açar əhli-vətən ə'da bədənində,
Bədxah ala ta ibrət iyi gülşənimizdən.

Xakəstər edər cismimizi atəşi-qeyrət,
Gər "dudə" ala xəsmi-dəni gülxənimizdən.

Tərk etsə də rəhzənliyi, sail bekəf olsa,
Bir danə ala bilməyəcək xərmənimizdən.

Bir şəkli-hilalı yaparız sinəsi üzrə
Xəsmi-vətənin, bəlkə, səmi-tövsənimizdən.

Topraq, məsələn, bir səri-suzəncə verilməz,
Məlbusimizi soysa da düşmən tənimizdən.

Biz qəl'eyi-mərsusi-təvəkküldə müqimiz,
Təhrik edəməz kimsə bizi mə'mənimizdən.

Himmət ediniz, düşməni məhv eyləyəlim ta,
Ətfal kimi qaçmayalım məskənimizdən.

Zülmat kimi tirəvü tar olsa da dünya,
Nurani edək ani dili-rövşənimizdən.

Namusi-vətən hifzi üçün bəzl edəlim can,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ta vizrü vəbali götürək gərdənimizdən.

Can ilə, dil ilə, pul ilə, həm qələm ilə,
Bu yolda dəriğ etməyəlim hər fənimizdən.

Vəsvasi olan mənzili-məqsudinə yetməz,
Bir zərrəcə bak etməyəlim rəhzənimizdən.

Hər kəsdə rəxavət ələmi gəlsə büruzə,
Daruyi-şəfa verməliyiz havənimizdən.
Rüstəm kimi bir şiri-düpeykər edib icad,
Bak etməyəlim düşməni-ruyintənimizdən.

Cahil kimi biz zülməti-cəhl içrə yaşarkən,
Dünyanı işıq tutmadadır rövğənimizdən.

Ey Cənnəti, çün xaki-vətəndir bizə gülşən,
Şeytan gözünə xar batar rövzənimizdən.

*“Dirilik”, 16 fevral 1914*

## QADIN

Nuri-çeşmim, cismə candır, canə canandır qadın,
Afitabi-ruzdir, şəm’i-şəbistandır qadın.

Eyni-insandır, – deyərsəm, ya ki – xud insani-eyn,
Sanma kəcbinəm ki, hər bir mədhə şayandır qadın.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bibəsirətlər ünasə kəc baxarlar kur tək,
Mərdümi-bina gözündə eyni-insandır qadın.

Çadiri-ismətdədir göz mərdümi tək müstətər,
Pərdə içrə mərdüməkmanənd, pünhandır qadın.

Kim ananı xar görsə, xar batsın çeşminə,
Ey nəzakət anlayan, gül kimi xəndandır qadın.

Həmdəmi-dil, məhrəmi-əsrardır, arami-can,
Zövcinə qəmxar, ətfalə nigəhbandır qadın.

Ər kişi irməz qadınsız xaniman təşkilinə,
Bir əsasi-möhkəmü mərsusi-bünyandır qadın.

Nəssi-Qur'andır, gözüm: "Fihinnə xeyratün hisan",*
Nazənini-pakbazü pakdamandır qadın.
Cənnəti təşxisdən acizdir, əsla bilməyir
Kim, mələkdir, ya pəri, ya ins, ya candır qadın.

*"Dirilik", 1 fevral 1915*

**MÖVLUDİ-NƏBİ**

Həyatə basdı qədəm, bir xocəstəpey mövlud
Ki, ismi-paki Məhəmməddir, Əhmədü Məhmud.

---

* Orada xoşrəftar və gözəl üzlü qadınlar var (Ər-Rəhman, 70).



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cəzirətül-Ərəbə qıldı bir sitarə nüzul
Ki, ondan eylədi ənvar ləm’ə-ləm’ə səud.

Xitamə yetdi hami bəhsi-sə’dü nəhsi-nücum,
Həqiqətin günəşi qıldı aləmi məs’ud.

Doğurdi madəri-əyyam bir xələf ki, onun
Misalını nə görüb, nə görər bu zali-vəlud.

Necə xələf ki, onun əmri ilə dünyanın
Təmam rüb’i edər gah qiyam, gah sücud.

Necə xələf ki, onun qədrü şə’ninə nisbət,
Ümumxəlq şüunati görsənir məhdud.

Necə xələf ki, onun adı zikr olunduqda,
Rəvani-pakinə irsal olur səlamü dürud.

Nifaqü küfr ilə məşhuri-dəhr idi ə’rab,
Zəbuni-cəhli-vəsavis, əsiri-cinnü xümud.

Məşiyyəti-əzəli eylədi müqərrər kim,
O qövmün ayinəsi olmaya qübaralud.

Xilas qılmağa ol qövmi bu zəlalətdən
Peyəmbər eylədi irsal, kirdigari-vədud.

Ərəb ki, tihi-zəlalətdə idi kəlmə’dum,
Onun hidayəti feyzilə etdi kəsbi-vücud.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yetim ikən, neçə milyon nüfusə oldu pedər,
Fəqir ikən, hamu sultanlara olub məhmud.

Şüru’ edildi kəlamə, oxundi ləhni-Hicaz,
Fəramuş oldi məzamirü nəğmeyi-Davud.

Nəbi mədinədir elmə, Əli ona qapıdır,
Xəta degilmi, desəm, babi-elmdir məsdur.

Lisani-həqqi necə bağlıdır, deyim, heyhat,
Nə mürtədəm, nə məcusəm, nə bütpərəstü yəhud.

Məhəmməd ilə Əli ümmətə ata-anadır,
Bu iki zati ata bilməyən nədir, mərdud.

Nücum kibi saçub nur, sadiq əshabi,
Münəvvər eylədilər aləmi çü dari-xülud.

Nə bak, Cənnətiyə yetər tə’n düşməndən,
Nəbi məhəbbətidir, anə cövşəni-Davud.

*“Dirilik”, 16 yanvar 1915*

## ARZULARIM

Nə yaxşı idi, xəlayiqdə iki xislət olaydı,
Birisi növ’ə məhəbbət, biri sədaqət olaydı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Riyayi adəti mərdüm edəydi tərk, əvəzində
Qülubi-mərdümə hakim xülusi-niyyət olaydı.

Cəhənnəm eylədi dünyanı xəlqə nari-ədavət,
Yağaydı barişi-rəhmət, cəhan çü cənnət olaydı.

Qara bulud çəkiləydi, həva olaydı münəvvər,
Doqquz qəbabə kəvakib çırağı zinət olaydı.

Əsib nəsimi-ədalət, sönəydi zülm çırağı,
Səlimə müjdeyi-rəhmət, şərirə ibrət olaydı.

Həva bu nəhv ilə məğşuş, bən də halı pərişan,
Bu iki mani'ə dəf'inə bəndə qüdrət olaydı.

İki qapı açılaydı yüzünə əhli-cəhanın,
Birisi babi-həqiqət, biri sədaqət olaydı.

Edəydi yer yüzün abad, çün behişti-məkatib,
Nə qəm olaydı, nə qüssə, nə bir küdurət olaydı.

Olaydı hər kişi məşğuli-elm, kəsbi-məaşə,
Nə büğz olaydı, nə kinə, nə bir ədavət olaydı.

Əgər yetəydi mənim daməni-həqiqətə dəstim,
Verərmidim onu əldən, əgər qiyamət olaydı.

Bəni müşəvvəş edən mətləbi bəyan eyləyərdim,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məqami-əmn bulunsaydı, cayi-xəlvət olaydı.

Ölən zəmanda da azadəlik bəratını, yarəb,
Verəydilər bənə, ey kaş, əlimdə hüccət olaydı.

Nə ehtiyacım olaydı, nə xəlqdən bənə ehsan,
Nə gərdəni-şərəfim zirbari-minnət olaydı.

Dedim, qəbul edəməm kimsədən müavinət, əmma
Qəza dedi, bəli, zənnində gər isabət olaydı.

Nolaydı, cüz'i məaşım olaydı ta nəfəsim var,
Həmişə pişəvü şüğlüm ümumə xidmət olaydı.

Nə türfə idi, bir az lüknət olmayaydı dilimdə
Və ya sınıq qələmimdə bir azca cür'ət olaydı.

Bu arizu ki, varımdır, hamını nəzmə çəkərdim,
Zəman olaydı müsaid, əlimdə fürsət olaydı.

Təmam aləmi, ey Cənnəti, müsəxxər edərdim
Füzuli kibi əgər bəndə də fəsahət olaydı.

*"Dirilik", 16 dekabr 1914*

## KİTAB

Əhli-ruhə, ey oğul, bir munisi-candır kitab,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qəlbə qüvvət, çeşmə taqət, canə canandır kitab.

Zaiqən salimsə gər, var onda əsmari-ləziz
Kim, qələm əşcarə malik bağü bustandır kitab.

Hər xiyabanında minlərcə gül açmış rəng-rəng,
Əhlinin indində pürqiymət gülüstandır kitab.

Hikmətü elmü ədəblə sərbəsər məşhun ikən,
Mən nə tə'rif eyləyim, hər vəsfə şayandır kitab.

Xoş keçirdər vəqtini hər kim ki, nisfül-leylədək
Həmdəmü həmsöhbət olmuş, anə mehmandır kitab.

Ehtiramın gözləmək vacib deyilmi mərdümə,
Bir həkimi-danişamuzi-süxəndandır kitab.

Söhbəti bitməz-tükənməz, cümlə tarixə bələd,
Zibi-məclis, rövnəqəfzayi-dəbistandır kitab.

Bu hünərlərlə belə minqadi-əmrindir sənin,
Hər nə əmr etsən, müt'iyi-hökmü fərmandır kitab.

Bir məhəkdir qüvveyi-idrakını təşxis üçün,
İmtəhani-elm üçün me'yarü mizandır kitab.

Taxsa gər mərdi-siyasidan bəsirət eynəyin,
Cənnəti tək söyləyər, həqqa ki, Qur'andır kitab.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## TÖVBİX

Ey cuş edən həmişə misali-xüm şərab,
Cövrinlə bəsdir eylədin el bağrını kəbab.

Hər kim əziyyət eyləsə öz ziri-dəstinə,
Meyxarələr kibi tez olur xanimanxərab.

Xəffaş kibi talibi-zülmatsən hənuz,
Qıl indi çarə başinə kim, doğdu afitab.

Mə'lumdur bu kim, bulanıq sudə seyd olur,
Səyyadi qərq edər, vəli, başdan aşarsa ab.

Kütah olur payız günü tək ömrü zalımın,
Əssə nəsimi-ədl, dəvam eyləməz səhab.

Sərməsti-şürbi-badəvü gərmi-qumarsən,
Sil indi çeşmini, məlakül-mövtə ver cəvab.

Hər kəs axarsa seyli-xüruşan tək hər yana,
Bir az zəmanda su tək onu bəl' edər türab.

Məğruri-həşmət olmağın axır nəticəsin
Əvvəl qədəmdə etməlidir mərd olan hesab.

Dünyaya sığmayan kişinin aqibət fələk



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Zindani-qəmdə qollarına bağlayar tənab.

Xudbin olan gərək gözünün sürməsin silib,
İnsaf ta qata çeşminə çün hübab.

Onda görər ki, başının üstə nücumdən,
Milyonlar ilə nurfəşandır qızıl qəbab.

Hərgah qüruri sınmaz isə qövsi-çərxdən,
İblisvar ona yağacaq tir, san şəhab.

Hərgah "balon" müavinətilə göyə eşşək
Etsə xürüc, el adlar yenə dəvab.

Zərbəft çul himari bəni-Adəm eyləməz,
İblisə adəm eyləyə bilməz "mələk" xitab.

Dünyanı tutmağa, görünür, xeyli təşnəsən,
Qandırmayıb Sikəndərü Darani bu sərab.

Tutmuş cəhanı nikbətin, ey şum, misli-bum,
Murdarvar mərdüm edər səndən ictinab.

Dövran dönübdür, iş dəyişib, aləm özgədir,
Minbə'd vermə ruhinə ruh əhlinin əzab.

Ə'malını əgər yaza bilsəydi Cənnəti,
Bağlanmış idi adına tarixi bir kitab.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*1 yanvar 1915*

* * *

İsanı xəcil etmədədir sübh nəsimi,
Hərdəm edər ehya neçə min əzmi-rəmimi.

Hərgiz səri-mu qədri dəhanından əsər yox,
Qüdrət qələmi gözləməmiş həlqeyi-mimi.

Hər bül-həvəs bəzminə yol vermə, həbibim,
Salma nəzərindən habelə yari-qədimi.

Hərgah kişidə himmət olursa, əcəb olmaz,
Gəzdirsə sərəngüştdə bu xaki-cəsimi.
Aciz kibi bikəsliyini qılma bəhanə,
Yar et özünə lütfi-xudavəndi-kərimi.

Ahından olar mərdə qılınc, şairə xamə,
Ariflə igid neyləyər, aya, zərü simi?

Hərgah əsarət ələmin görməmiş olsan,
Var məscidə, vaizdən eşit vəsfi-cəhimi.

Bir kimsənədən lütfü kərəm gözləmə, zira,
Bəsdir bizə Allahımızın lütfi-əmimi.

Qıl sübhü məsa Cənnəti tək millətə xidmət,
Ta dərk edəsən ləzzəti-cənnati-nəimi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*1915*

## EDƏR

Ta fikri-bikr xaməsi meyli-dəvat edər,
Zülmati çeşmi-mərdümə eynül-həyat edər.

Şətrənci-əql ərsəsinin bir piyadəsi
Rüx göstərərsə, fili yıxar, şahı mat edər.

Girdabi-qüssədən dilü cani xilas üçün
Himmət sənə tədarük fələkün-nicat edər.

Aləmdə e’tilafi-məhəbbət gər olmasa,
Aba qət’i-rabiteyi-ümməhat edər.

Cəzbi-qülubi-mərdüm üçün zahidi-cəhul,
Bid’ətlərilə məscidi çün sövmənat edər.

Söylərsə ağlamaqlığı mahiyyi-seyyiat,
Yazıq əvam tərki-zəkatü səlat edər.

Xamuş edərsə əşk ilə guya cəhənnəmi,
Bir ahi-sərdə cənnəti-rizvan bərat edər.
Öl bir kərə, qurtar, daha bəsdir, xırıldama,
Azadlıq təlafiyi-hər zayiat edər.

Olma kəsil, aç gözün, iç abi-mə’rifət,
Bu saf cür’ə rəf’i-kəlamü səbat edər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Azadəlik bəratini gər alsa Cənnəti,
Bişübhə, fəc'ətən fərəhindən vəfat edər

*16 sentyabr 1914*

## QƏLƏM

Yazanda dilbəri-şirinkəlamə namə qələm,
Gəlir çü tutiyi-şəkərkən kəlamə qələm.

Səvar olanda səməndi-neyi-bənan üzrə,
Ümuri-aləmi salmaq dilər nizamə qələm.

Həmişə məşy eləyir xətti-müstəqim üzrə,
Nəzakət ilə gələn vəqtdə xuramə qələm.

Misali-ahuyi-Çin qətrə-qətrə müşk saçar,
Əbr iyi yetirər dəmbədəm məşamə qələm.

Basanda Xızr kimi zülməti-dəvatə qədəm,
Bəqa suyu içib, can verir kəlamə qələm.

Rümuzi-fəhmi-süxənsəncü əhli-danişdir,
Bənan işarəsi ilə gəlir qiyamə qələm.

Ümumə məhrəmi-razü ülumə xazindir,
Hamı hünərlərini irdirib təmamə qələm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cəhanda daimən əllameyi-zəman olmuş,
Əgərçi başinə hiç qoymayıb əmamə qələm.

Başı kəsilsə əgər, zərrəcə dilin kəsməz,
Hüququn almağa bənzər iti həsamə qələm.

Həmişə sahibini eyləmiş əzizi-cəhan,
Əbəs deyil ki, belə yetmiş ehtiramə qələm.

Nüfuz sahibidir şahlərdən istər bac,
Ülüvvi-himmət ilə irdi bu məqamə qələm.

Qılınc fəthi-bilad etsə, amiri oldur
Ki, yazmış adına əvvəldə fəthnamə qələm.

Həqir sanma ki, dünyanı qərq edər qanə,
Zəbanını hərəkət versə intiqamə qələm.

Təfaxür eyləməsün cövhərinə çox şəmşir,
Qan ağladar ona, başlarsa ibtisamə qələm.

Qələm nə olduğunu Cənnəti bəyan edəməz,
Məgər onu yetirə layiqincə kamə qələm.

Kim olsa mane`i-azadiyi-qələm, yarəb,
Görüm ki, əlləri olsun misali-xamə qələm.

*"Dirilik", 16 sentyabr 1914*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## VƏTƏNİM

Zahid, demə, dünya nə sənindir, nə bənimdir,
Bu tudeyi-qəbra nə sənindir, nə bənimdir.

Verməm vətənin bayrağını düşmənə hərgiz,
Pirahəni-sancaq mənim axır kəfənimdir.

Neydir qələmim, gərçi zəbanında şəkər var,
Şirin danışan tutiyi-şəkkərsüxənimdir.

Bir kimsəyə dərdi-dilim izhar edə bilməm,
Məhrəm mənə var isə, fəqət pirəhənimdir.

Əbnayi-vətən qüssəsi bağrımı edib qan,
Göz yaşı mənim şahidi-sidqi-süxənimdir.

Gülzar təmaşası könül qönçəsin açmaz,
Gül-gül açılan qanlı bədənlər çəmənimdir.

Ağüşteyi-xundur vətən övladı, xəyali
Sərvim, səmənim, yasəmənim, nəstərənimdir.

Tə'n oxlarına qılma hədəf, sanma fəqirəm,
Mən cövhəriyəm, göz yaşı dürri-ədənimdir.

Təsxir edərəm, Cənnəti, dünyanı, dəlilim:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu təb'i-rəvanü qələmi - mümtəhənimdir.

*"Dirilik", 2 oktyabr 1914*

## TƏRCİBƏND

Çərxi-kəcrəftar edər məxluq ilə büğzü inad,
Aləmə qan ağladır gərduni-duni-bədnihad,
Daima qətli-nüfus, illərcə təxribi-bilad,
Şikvəyə açdıqda dil, söylər nəbatatü cəmad,
Hər nə işlər-işləsün bu aləmi-kövni-fəsad,
Durmuşuq səddi-Skəndər tək hər ançə bad-bad.

Hər nə etmək istəsə, bu çərxi-varun eyləsin,
İstəsə, dünyanın övza'in digərgun eyləsin,
Ya hamı səhranı yəm, dünyanı hamun eyləsin,
Az sanırsa cövrünü, bundan da əfzun eyləsin,
Hər nə işlər-işləsün bu aləmi-kövni-fəsad,
Durmuşuq səddi-Skəndər tək hər ançə bad-bad.

Bilmişik, yox tinətində zərrəcə mehrü vəfa,
Bimürüvvətdir, düşünməz kim, nədir sidqü səfa,
Pişəsi büğzü ədavət, sən'əti cövrü cəfa,
Seyl tək qanlar axıtsa, sədrinə bulmaz şəfa,
Hər nə işlər-işləsün bu aləmi-kövni-fəsad,
Durmuşuq səddi-Skəndər tək hər ançə bad-bad.

Ömrlərdir, bilmişik dövrin siyəhkar olduğun,
Cənbəsində fitnəvü əzrarü azar olduğun,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əhli-hal ilə ədu, əşrar ilə yar olduğun,
Kimsə inkar eyləməz bu çərxi-üzar olduğun,
Hər nə işlər-işləsün bu aləmi-kövni-fəsad,
Durmuşuq səddi-Skəndər tək hər ançə bad-bad.

Bu cəfagər kimsəni dilşadü azad istəməz,
Hər kimi azad görsə, onu dilşad istəməz,
Madəri-namehribandır, yə'ni övlad istəməz,
Gördüyün viran edər, heç mülkü abad istəməz.
Hər nə işlər-işləsün bu aləmi-kövni-fəsad,
Durmuşuq səddi-Skəndər tək hər ançə bad-bad.

Hər xəyal eylərsə, etsin düşməni-gümrahımız,
Aqibət hasil olur mətlubcə dilxahımız,
Möhtərizdir fikri-fasiddən dili-agahımız,
Cənnəti, yox bakimiz, çün var bizim Allahımız,
Hər nə işlər-işləsün bu aləmi-kövni-fəsad,
Durmuşuq səddi-Skəndər tək hər ançə bad-bad.

*"Dirilik", 2 oktyabr 1914*

## LİBAS

At bu əba-qəbanı, yaraş əsri-hazirə,
Qıl iqtida libasdə xəyyati-mahirə.

Çün sövb barəsində "fəttəhhəru"* demiş Xuda,

---

* …Pak olun, təmizlənin… (Maidə, 6)



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təfsir edib onu üləma sövbi-qasirə.
Təqva libası əyninə gey, pakdamən ol,
Ol mürdəşir aparmışı tərk et əcamirə.

Bir camə ki nə bəzmə, nə rəzmə yaraşmayır,
Şəksiz, səfərdə də törədir bir müxatirə.

Nə oğrusan, nə əyri, qüsurun yox isə gər,
Bunca bürünmə xirqəyə, ya başqa satirə.

Damən ayağına əməlin tək dolaşmasın,
Məğrur olub da, gəlmə məqami-təfaxürə.

Üzlət libasın at dəxi, izzət libası gey,
Nəzr eylə ani mö'təkifə, ya mücavirə.

Bir əsrdir bu əsr ki, sevməz əsarəti,
Hətta qadın dilər vura od, bəlkə, çadirə.

Məxsusi-zümreyi-süfəhadır uzun libas,
Nə arifə yarar, nə ədibə, nə şairə.

Xəlqin libasının həsədi yandırır səni,
Atəş yaxar, nə mö'minə baxmaz, nə kafirə.

Paltar səni nə Cənnəti eylər, nə duzəxi,
Pak eylə batinin, əməl eylə əvamirə.

*"Dirilik", 16 oktyabr 1914*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Payız ki, daxil oldu, tökdü yapraq bağü bostanlar,
Daha güldən danışma, ey qələm, yaz başqa dəstanlar.

Dəyişmiş gərdişin çünki bu gərduni-dunpərvər,
Payız fəslində yağmur tək yağar hər səmtə peykanlar.

Əcəb sanma, desəm gər fitneyi-axırzəmandır bu,
Əgər şahid dilərsən, şahidim göydən yağan qanlar.

Olub ağuştə xakü xunə övladi-vətən guya,
Səadət kəsbi üçün nəzr olmuşdur bu qurbanlar.

Urun həblül-mətin ittihadə çəngi-qeyrətlə
Vətən rahində, ey əhli-vətən, qurban edək canlar.

Çalışqan milləti məhv eyləmək asanmı, yox, billah,
Varımdır bu sözə tarixdən binlərcə bürhanlar.

Edək himmət, edək qeyrət, vətəndaşlar, mürüvvətdir,
Edək ə’da gözündə bərq tək hər ləhzə cövlanlar.

Qəvi düşmənlərin dəf’inə himmət tiği-bürrandır,
Edib bu cümləni kərrat ilə isbat meydanlar.

Fünuni-cəngə sanma nabələddir Cənnəti, əmma
Nə yapsın kim, pərişan söyləyər halı pərişanlar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*“Dirilik”, 1 noyabr 1914*

## MƏKTƏB

Səriri-xamə oxursa təraneyi-məktəb,
Hamı çocuqlar olurlar rəvaneyi-məktəb.

Kim istəyirsə ki, hər bəzmdə məsdər ola,
Gərək məqamı ola asitaneyi-məktəb.

Əcəb deyil, ola gər sərçə şahbaz, olsa
Qəzavü əşrəbəsi abü daneyi-məktəb.

Nə şəhrdir, nə də qəryə, deyilmi qəbristan
Hər ol bələd ki, yox onda nişaneyi-məktəb?

Ərus türrəsi şe’rim kimi müşəvvəş olur,
Başinə taxmasa hərgah şaneyi-məktəb.
Açanda dürci-dəhən dürr tökər müəllimlər,
Cəvahirat ilə dolmuş xəzaneyi-məktəb.

Desəm beyti-Xudadır, deyil xilaf sözüm,
Qızıldan olmalıdır üstüvaneyi-məktəb.

Vətən çocuqlarının qibləgahı ol kəsdir
Ki, varın eyləyə vəqfi-ianeyi-məktəb.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səməndi-təb’i səbksiz olurdu Cənnətinin,
Əgər dəyəydi ona taziyaneyi-məktəb.

*“Dirilik”, 16 noyabr 1914*

## ŞAİR

Təvəkkül balışın vəqti ki püştiban edər şair,
Təvəssül rukeşindən balışın üryan edər şair.

Bənanında qələm, dəstində lövh olduqda sahir tək
Əcayib göstərib mərdümləri heyran edər şair.

Xəta qıldım, deyil sahir, kəramətlər qılıb zahir,
Əlində xaməsin sahirlərə sə’ban edər şair.

Dilərsə çeşmi-mərdümdə, qılar bir fili bir pəşə,
Sevərsə bir cəbuni, Rüstəmi-dəstan edər şair.

Şəkərriz olsa ney tək xaməsi, Fərhadü Şirini
Edib ehya, kəlami-Xosrovi ünvan edər şair.

Salır Məcnun kimi səhraya Qeysi Leyli eşqində,
Məhəbbət ayəsin bu nəhv ilə tibyan edər şair.

Züleyxa ilə Yusif qəsdəsin təhrir qıldıqda,
Kəlami-dürr nizamın taliyi-Qur’an edər şair.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər ol məhbub kim, safzəmirü sadəməşrəbdir,
Onu dil mülkünə bir hökmran sultan edər şair.

Yalandır şe’r, əgərçi onda hikmətlər verib xərcə,
Məarif süfrəsinə mərdümi mehman edər şair.

Edib iyqaz xəlqü Allahi ustadanə vəch ilə,
Xümudü cübndən ikrahü rugərdan edər şair.

Edib tərğib təhsili-ülumü sən’ətə daim,
Cəhan əhlin həmişə maili-ümran edər şair.

Kinayatü işaratü rümuzü istiarə ilə,
Açıb əzhani, xəlqi sahibi-əz’an edər şair.

İşi dərki-dəqayiq, pişəsi kəşfi-həqayiqdir,
Bəsirət eynəyilə gördüyün mizan edər şair.

Fəsahətlə bəlağət olmasa, tə’siri müşküldür,
Sözün hər müşkülün həll eyləyib asan edər şair.

Gələ Sokrat ilə Bokrat əgər dünyayə, yox çarə,
Cəhalət dərdinə, zənnim budur, dərman edər şair.

Rəşadət dərsini əfsanələr zimnində şərh ilə,
Vətən övladını bir farisi-meydan edər şair.

Hüquqi-mərdümə bir kəs təcavüz qılsa, nəzm ilə
Qiyamətlər qopardıb aləmi viran edər şair.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əgər, ey Cənnəti, sən şair olsaydın, bilərdin kim,
Fəqət el xidmətilə kəsbi-izzü şə’n edər şair.

*“Dirilik”, 16 noyabr 1914*

## DƏVAT

Xaməyə ruh eyləyər əta, kəlamə – can dəvat,
Yə’ni zülmat içrə bəslər çeşmeyi-heyvan dəvat.

Türrəsi tək cəm’ edər zülfi-ərusi-mətləbi,
Nafi-ahu tək olar qirtasə müşkfəşan dəvat.

Xamə gər yüz xəncəri-fulad çalsa bağrına,
Misli-ruyintən açar köksün, qılar qalxan dəvat.

Kim ona bir qətrə su versə, alar yüz min əvəz,
Dürrü gövhər bəzl edər çün Qülzümü ümman dəvat.

Bir siyəh çərdə qələndərvardır julidəmu,
Kim bilir, hər bir tüki sayınca min dəstan dəvat.

Mərdümi-çeşmi-siyasidan kimi bu aləmi,
Bərhəmü dərhəm qılar, tərpətsə gər müjgan dəvat.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həmçinin istərsə gər aləmdə tənzimi-ümur,
Rətqü fətqi-əmr üçün “kilk”ə verir fərman dəvat.

Nuri-eyni-əhli-aləmdir, toxunsan zülfünə,
Türfətül-eyn içrə eylər aləmi viran dəvat.

Cənnəti, gər adlayırsam çeşmeyi-hikmət, nolur,
Hər sözü eylər müdəlləl, göstərir bürhan dəvat.

*“Dirilik”, 1 dekabr 1914*

## EHDA

*Səttar xanın ruhi-pürfütuhinə!*

Ey vətən cisminə çün ruhü rəvan Səttar xan!
Ruhi-pakin ola cənnətdə rəvan, Səttar xan!

Ey vətən xadimi, ey əqdəgüşayi-millət,
Ey hünərməndi-cəhan, fərdi-zəman Səttar xan!

Əhsən olsun sənə namusi-vətən hifzi üçün
Can qoyarkən, şərəfin etdi zəman, Səttar xan!

Afərinlər sənə, ehya elədin millətini,
Elədin mürdələri sahibi-can, Səttar xan!

Himmətin dəstini kutah elədi zülamın,
Ey şücaətdə zəbərdəsti-cəhan Səttar xan!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İsmü rəsmin həzin seyti cəhangir olmuş,
Ey cəhangiri-zəman, miri-yılan Səttar xan!

Əkdiyin şaxə göyərməkdə ikən, heyf sənə,
Vermədi peyki-əcəl bir dəm əman, Səttar xan!

Səni haşa ki, fəramuş edə övladi-vətən,
Yeri var, ağlasa mərdüm sənə qan, Səttar xan!

Sən açan cadədə mərdüm yürüyür sür'ət ilə,
Doğrudur, Cənnəti qövlini inan, Səttar xan!

*"Dirilik", 16 dekabr 1914*

* * *

Gözümdə bir görünür şah ilə gədayi-vətən,
Yeganədir mənə kim olsa aşinayi-vətən.

Zəmanə tar isə, çeşmimdə çoxdur ümmidim,
Ziyabəxş ola filcümlə tutiyayi-vətən.

Başını ərşə yetirməzmi fəxr ilə daim
Hər ol yigit ki, ola hamili-livayi-vətən!?

Vətən bizə anadır, çünki biz ona oğuluz,
Dolub əruqimizə qan kimi vəlayi-vətən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vətən qəmindən əgərçi şikəstədir könlüm,
Şikəsti bəst edər axır ki, mumiyayi-vətən.

Vətən, vətən, nə vətən, bağİ-arizuyi-rical,
Qülubi-mürdəyə canbəxşdir həvayi-vətən.

Əziz meyvələrin zaye’ etmə cəhlin ilə,
Mükəddər olmaya səhni-fərəhəfzayi-vətən.

Vətən çocuqları gər qalsalar belə cahil,
Xuda nəkərdə, çıxar ərşə ahü vayi-vətən.

Məzar içində edər çak, şübhəsiz, kəfənin,
Oxunsa mürdəyə hərgah macərayi-vətən.

Vətən nəcibələri çadirin atarsa, nolur?
Açıb başını ünas eyləyir duayi-vətən.

Ülumə də’vət eylə, Cənnəti, vətən əhlin,
Sözümə bavər eylə, cəhldir bəlayi-vətən.

*“Dirilik”, 1 noyabr 1914*

* * *

Nadan keçirdər ömrünü əfğanü ah ilə,
Nadan gülər cəhan işinə qah-qah ilə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yox ehtiyacı əsgərə, hətta keşikçiyə,
Çox fərqi var fəlasəfənin padşah ilə.

Təsxir edir cəhanı kəlamilə feyləsuf,
Fəth eyləyirsə kişvəri sultan sipah ilə.

Həllali-müşkilat zərü zurdur, əvət,
Həqqin alar kişi iki adil güvah ilə.
Qəddin kəmansa da, özün ol rast, çün xədəng,
Qıl zəhrə çak düşməni bir kəc nigah ilə.

Xülqi-əzim ər kişini sərbülənd edər,
İrməz igid bu rütbəyə tacü külah ilə.

Göstər səbat kuh kibi hər şədaidə,
Diksinmə hər həvadə uçan pərgah ilə.

Cah istəyən bilir özü, rah üstə çah var,
Yox sə'dü nəhs ilə işi, ya mehrü mah ilə.

Qanlar yudar mənim kimi hər lalə, Cənnəti,
Yaz fəsli həmcivar isə də gül giyah ilə.

## BAYRAĞIMIZ

Olsa meydanda əgər şəqqəgüşa bayrağımız,
Düşmənin qəddini etməzmi düta bayrağımız?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çün hilali çəkib ağuşə səadət təcmin,
Məhi-nov tək olub əngüştnüma bayrağımız.

Görsə göksündəki ay-yulduzu, göz xirələnir,
Bərqi-lame’ kimidir çöhrənüma bayrağımız.

Donadılmış gül ilə, səbzə ilə, zənbəq ilə,
Sanki gülşəndə tapıb nəşvü nüma bayrağımız.

Qibleyi-taəti-ixvani-səfadır, əlhəq,
Kəfəni-cismi-şərifi-şühəda bayrağımız.

Ta ki türk oğlu ayıqdır, vətəni qovuryacaq,
Yatmayıb, yatmayacaqdır əbəda bayrağımız!

Cənnəti, xitteyi-Azərbaycan cənnətdir,
Sayə salmış ona tuba kimi ta bayrağımız.

*“Azərbaycan” qəzetəsi, 1919*

## SANCAQ

Uğurlusan, xoşyəminsən, gözəlsən,
Sayəndə yaşarız vəcdi-hal ilə.
Nöqsansızsan, bimislü bibədəlsən,
Kəmalə yetmisən bir hilal ilə.

Göksündə ay-yıldız səma misali,
Şə`nin çox yüksəkdir, rütbəndir ali.
Sənə baş endirər alivü tali,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xidmətində durar canü mal ilə.

Rayəti-nüsrətsən, fatihi-kişvər,
Bayraqlar içində yox sənə bənzər.
Təməvvücün görcək buludlar titrər,
Öylə kim, dəryalar bir şimal ilə.

Vacib olmuş biz millətə hörmətin,
Həqq artırsın günü-gündən rif'ətin.
Gər bilməsək sənin qədrü qiymətin,
Yaşarız dünyada infial ilə.

Sayəndə ordumuz olmuşdur cəri,
Sözümüzün səninlədir kəsəri.
Hilalında vardır nüsrət əsəri,
Əsrlərlə nə ki mahü sal ilə.

Rəzmgah içində sabitqədəmsən,
Aləmlərdə şöhrətinləələmsən.
Cənnəti, sən əgər sahibqələmsən,
Yaz sancağın vəsfin xoş məqal ilə.

*"Azərbaycan" qəzetəsi, 1919*

## FƏXRİYYƏ

Hərçənd düçari-mühəni-əhli-cəfayiz,
Hərçənd bu əyyamdə pabəndi-bəlayiz,
Ey xar görən bizləri, bizlər nücəbayiz,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Meydani-həmiyyətdə ələmdari-vəfayiz.
Turanlılarız, sahibi-şə’nü şərəfiz biz,
Əslafımızın nayibi xeyrül-xələfiz biz.

Ey zülmi-cəhalət, həzər et göz yaşımızdan,
Dur olmalısan torpağımızdan, daşımızdan,
Bu yolda mədəd bizlərə məsləkdaşımızdan,
Hürriyyət üçün vaz keçəriz can-başımızdan.
Turanlılarız, sahibi-şə’nü şərəfiz biz,
Əslafımızın nayibi, xeyrül-xələfiz biz.

Cür’ət bizə gəhvarədə adət verilibdür,
Məktəbdə bizə dərsi-bəsalət verilibdür,
Ehrazi-zəfər, töhfeyi-himmət verilibdür,
Əvvəlcə bizə müjdeyi-nüsrət verilibdir.
Turanlılarız, sahibi-şə’nü şərəfiz biz,
Əslafımızın nayibi, xeyrül-xələfiz biz.

Övsafi-nəcibə qoyulub tinətimizdə,
Əxlaqi-pəsəndidə əyan sirətimizdə,
Bir mövdiədir feyzi-hünər fitrətimizdə,
Məknuzi-ləali ədəbi-xilqətimizdə.
Turanlılarız, sahibi-şə’nü şərəfsiz biz,
Əslafımızın nayibi, xeyrül-xələfiz biz.

Kim ki, ola zibavəri-divani-vəkalət,
Şayəstə ola şə’ninə əklili-kəramət,
Qanuni-əsasiyi bilə rahi-ədalət,
Bu şərt ilə əncaq edəriz ona riayət.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Turanlılarız, sahibi-şə’nü şərəfiz biz,
Əslafımızın nayibi, xeyrül-xələfiz biz.

Ey Cənnəti, biz sidqü səfadən ururuz dəm,
İxvani-səfayız ki, vəfadən ururuz dəm,
“Sanma ki, əbəs feyzi-dəvadən ururuz dəm,
Bu millətə daruyi-şəfadən ururuz dəm”.
Turanlılarız, sahibi-şə’nü şərəfsiz biz,
Əslafımızın nayibi, xeyrül-xələfiz biz.

*“Füyuzat”, 7 avqust, 1907*

**SƏ’DİDƏN TƏRCÜMƏ**

Keçən gün ki, həmmamə qıldım güzar,
Bənə həmnişin oldu bir gülüzar.

Qılıb təhniyət, verdi bir müşt gil
Ki, ətri mənə ariz etdi xumar.

Dedim, müşk, ənbərmi ya gülmisən?
Dedi, bir giləm mən, nəzərlərdə xar.

Gül ilə, vəli, həmnişin olmuşam,
Bu feyzi mənə bəxş edib həmcivar.

Lətif iy ilə gər olmasaydım cəlis,
Türabi-kəsifəm, de, məndə nə var?

*Mütərcimin dilindən:*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qulağımda cingildədi nagəhan
Sədayi-cərəs tək “Nəvayi-sitar”.*

Əlim titrədi, gözlərim görmədi,
Qələm sıçrayıb düşdü biixtiyar.

Yetib hatifi-qeybdən bu nida
Ki, ey mərdəki-bişüurü şüar.

Vəzifə deyil çün sənin tərcümə,
Tanı həddini, çıxma yoldan kənar.

Saqın, ruhi-Sə`di olur lə’nxan
Sənə, Cənnəti, bir utan, eylə ar.

Bu fərdi fəramuş edibsən məgər
Ki, yazmışdı bir şairi-huşyar.
Bir gərək Gülüstanə çəkilsin həsar,
Girib güllərin yolmasın hər himar…

*“Dirilik”, 16 aprel 1915*

## ÖYÜD

*Müsəmməti-müstəzad*

Huşilə eşit pəndimi, ey ərşədi-övlad,

---

* Molla Nəsrəddin məcmuəsində yazılan bir mənzumənin ünvanıdır (Əlabbas Müznib).



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fəhm et, xələf oğlum.
Övladını hər fənndə qıl mürşüdü ustad,
Fəhm et xələf oğlum.
Ustad ona derlər ki, edə mərdümi irşad,
Fəhm et, xələf oğlum.
İrşad eləyən kimsə gərək arifü azad,
Fəhm et, xələf oğlum.

Hər xoş görünən sanma, oğul, əhli-xirəddir,
Zinhar əmandır.
Çox zahiri xoş var ki, onun batini bəddir,
Əxlaqi yamandır.
Surətdə əgər miş isə, siyrətdə əsəddir,
Aşubi-zəmandır.
Hər anidə min hiyləvü təzvir edər icad,
Fəhm et, xələf oğlum.

Xoşbəxtdir ol kəs ki, bilə elmi-qiyafə,
Xassə bu zəmanda.
Təşxis verə ta özü hər qəlb ilə safə,
Bu dari-cəhanda.
Min elmü hünər kəsb qıla bundan izafə,
Bu kövnü məkanda.
Ta mərdüm ola, hər nəyə əmr eyləsə minqad,
Fəhm et, xələf oğlum.

Namərdi-fürumayə ilə eyləmə ülfət,
Yox onda ləyaqət.
Hər hiyləvü təzviri güman etmə kəramət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Et hər işə diqqət.
Məsmu'ini həq zənn eləyib vermə şəhadət,
Qıl kəşfi-həqiqət.
Bu zənn edər xaneyi-imanını bərbad,
Fəhm et, xələf oğlum.

Əslü nəsəbin pak isə də, kəsbi-həsəb qıl,
Ol arifi-kamil.
Söhbət eləyən dəmdə müraati-ədəb qıl,
Çün mərdümi-aqil.
Gər oğlun ədəb gözləməsə, qəhrü qəzəb qıl,
Ta qalmaya cahil.
Ayinəsidir öz cədi-əmcadının əhfad,
Fəhm et, xələf oğlum.

Hər əmrdə tax gözlərinə çeşməgi-diqqət,
Tədqiq elə, tədqiq.
Hər söz ki, eşitdin, o sözü sanma həqiqət,
Təhqiq elə, təhqiq.
Əql ilə müxalif deyil ehkami-şəriət,
Təsdiq elə, təsdiq.
Təklif gəlib aqilə, məcnun olub azad,
Fəhm et, xələf oğlum.

Ey nuri-düeynim, gözün aç, aləmi seyr et,
Bədən elə pərhiz.
Nə kəndini vəsf eylə, nə də qeybəti-qeyr et,
Çox olma zəbantiz.
Cəhd eylə həmişə özünü baniyi-xeyr et,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aç dəsti-kəhərbiz.
Xeyratini gördükdə desinlər, evin abad,
Fəhm et, xələf oğlum.

Şər'ən nə həram isə, ona sən əl uzatma,
Xassə meyi-nabə.
Gər badə ola şəhdi-müsəffa, onu dadma,
Meyl etmə şərabə.
Bir cür'əyə həm əql, həm imanını satma,
Düşmə təbü tabə.
İnsafmıdır zaye' ola əqli-xudadad,
Fəhm et, xələf oğlum.
Aqil eləməz sirrini hiç kimsəyə izhar,
Ta təndə nəfəs var.
Ax-uf eləməz, gər ola min dərdə giriftar,
Çün mərdümi-bimar.
İzhar edə gər dərdini bir kimsəyə naçar,
Etməz dəxi təkrar.
Min qüssəsi olsa, görünər el gözünə şad,
Fəhm et, xələf oğlum.

Ərbabi-xirəd eyləyər afaqi münəvvər,
Çün xosrovi-xavər.
Lazım deyil, oğlum, sənə nə yarü nə yavər,
Cüz Xaliqi-davər.
Şayəstə deyil ər kişiyə zinətü zivər,
Ey türki-dilavər.
Ərbabi-hünər zinətidir ahənü fulad,
Fəhm et, xələf oğlum.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Atidəki əsrə qıl, oğul, oğlunu hazir,
Çün aləmi-amil.
Hər elmdə kamil elə, hər fənndə mahir,
Manəndi-əfazil.
Türk oğlu gərəkdir ola bibak bəhadir,
Leyk olmaya qafil
Kim, dami-hil əldə durub düşməni-şəyyad,
Fəhm et, xələf oğlum.

Hər danədə min görər mərdümi-huşyar,
Bahuşü bəsir ol.
Kim danəyə aldansa, olar damə giriftar,
Binavü xəbir ol.
Salma tuzağa mərdümi, çün zalimi-qəddar,
Pakizəzəmir ol.
Əlqissə, bu aləmdə nə seyd ol, nə də səyyad,
Fəhm et, xələf oğlum.

Ey nuri-bəsər, cani-pedər, puri-xirədmənd,
Ey sevgili fərzənd.
Bir piri-mücərrəb sənə təlqin eləyir pənd,
Ey sevgili fərzənd.
Öz eybini gör, özgələrə eyləmə rişxənd,
Ey sevgili fərzənd,
Kim, eyb aramaq cövhəri-əqli edər əfsad,
Fəhm et, xələf oğlum.

Əhli-vətəni mən sanıram kəndim, ay oğlum,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dilbəndim, ay oğlum.
Mən bilmədəyəm onları fərzəndim, ay oğlum,
Dilbəndim, ay oğlum.
Cümlə vətən övladınadır pəndim, ay oğlum,
Dilbəndim, ay oğlum,
Kim millətə xadimsə, qoyar dəhrdə bir ad,
Fəhm et, xələf oğlum.

Dünya dediyim qabili-ümrandır, əzizim,
Tövzihə nə hacət?
Ümrani sevən kimsə müsəlmandır, əzizim,
Təsrihə nə hacət?
Hər kəs ki, müsəlmandır, o insandır, əzizim,
Təşrihə nə hacət?
İnsan olan istər vətəni daimi abad,
Fəhm et, xələf oğlum.

Təkrim ilə kim ki, sənə tə'lim edə bir hərf,
Avizeyi-guş et.
Tövqir gözət, bəzmdə çox olma tünük zərf,
Az cuşü xüruş et.
Doğru yola, düzgün işə qıl himmətini sərf,
Bu pəndi niyuş et.
Təzvic elə övladına bir şux pərizad,
Fəhm et, xələf oğlum.

Əbnayi-vətən qeydinə qal, ta nəfəsin var,
Ol onlara qəmxar.
Övladi-vətəndir sənə çün yarü həvadar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həm yavərü ənsar.
Yoxlar vətənin əhlini hər taleyi bidar,
Hər türki-vəfadar.
Müşkildə görərsə, edər öz əhlinə imdad,
Fəhm et, xələf oğlum.
Gər püxtə isə, tutmaz işi xam igidlər,
Banam igidlər.
Sülh ilə verər hər işə əncam igidlər,
İslam igidlər.
Beş qit'eyi-dünyanı edər ram igidlər,
Aram igidlər.
Dünya vətənindir, nə ki bir Moskva, Bəğdad,
Fəhm et, xələf oğlum.

Ümmidini kəsmə, nə qədər əmr ola müşkil,
Allahı unutma.
Nəxli-əməlin meyvəsi tezdir, ola hasil,
Yaş eylə, qurutma.
Fürsət dəmidir, fürsəti fövt eyləməz aqil,
Bazarı sovutma.
Himmət əridər ahəni, çün kureyi-həddad,
Fəhm et, xələf oğlum.

Bil qədrini, qıl pəndi-səmimanəmi təqdis,
Bikibrü qürur ol.
Ümmid ilə tut hər işi, növmiddir iblis,
Bibakü cəsur ol.
Gər miknətin olsa, elə qaç mədrəsə tə'sis,
Hər xərcə səbur ol.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sərf etdigini mərdüm üçün eyləmə tə’dad,
Fəhm et, xələf oğlum.

Bu ömri-giranmayə yetər mayeyi-fürsət,
Bikar dolanma.
Dövlətsə muradın, hanı səhhət kimi dövlət,
Bikar dolanma.
Bil vəqti qənimət, ələ düşməz belə ne’mət,
Bikar dolanma.
Mətlubə yetər, kim ola zəhmətə mö’tad,
Fəhm et, xələf oğlum.

Dünyada igid kimsə çalışqan gərək olsun,
İstərsə tərəqqi.
Mə’qul sözə bəndeyi-fərman gərək olsun,
İstərsə tərəqqi.
Rəftardə, göftardə insan gərək olsun,
İstərsə tərəqqi.
Ta mərdüm oni nifrət ilə etməyələr yad,
Fəhm et, xələf oğlum.

Xeyrül-xələf ol, yə’ni ləim olma, kərim ol,
Kəsbi-şərəf eylə.
Kəcxülqü bədəndiş, übus olma, bəsim ol,
Kəsbi-şərəf eylə.
Səffakü qəzəbnaki-şərir olma, həlim ol,
Kəsbi-şərəf eylə.
Axır ki, nə sən Ad degilsən, nə də Şəddad,
Fəhm et, xələf oğlum.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sərmayəyə vabəstədir, əlbəttə, ticarət
Bazari-cəhanda.
Sərmayə yetər sadiqi-ənzafü əmanət
Bazari-cəhanda.
Kəsb et bu məziyyətlə, oğul, daimi şöhrət
Bazari-cəhanda.
Bak etmə, rəqabət eləsə bir para həssad,
Fəhm et, xələf oğlum.

Bax çeşmi-bəsirətlə, əzizim, bu həmirə,
Bil diqqətə şayan.
Cəhl eyləməsin ayineyi-əqlini tirə,
Çün mərdümi-nadan.
Hər pənd ki, verdim, oni yaz lövhi-zəmirə,
Çün ayeyi-Qur’an.
Bir hirzdir, insanı edər hifz bu övrad,
Fəhm et, xələf oğlum.

Çün Cənnəti bir piri-cəhandidədir, oğlum,
Tarixə bələddir.
Versə hər öyüd, cümləsi səncidədir, oğlum,
Mizani-xirəddir.

Bil, təcrübəvü elm iki didədir, oğlum,
Bir yaxşı sənəddir.
Dos-doğru degilmi verilən bunlara isnad,
Fəhm et, xələf oğlum.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*"Məktəb" məcmuəsi, 21 mart–1 nisan, 1919*

## DƏMİR

Ey bibəsirət, aç gözün ətrafə qıl nəzər,
Əfsürdə qılmasın səni füqdani-simü zər,
Toprağı zər yapar, kişi olsa ər oğlu ər,
Gər açsa cövhərin dəmirin sahibi-hünər.
E'caz göstərib, bəşəri mat edər dəmir,
Zatında cövhər olduğun isbat edər dəmir.

Fəllahə yardım etməsə, nayab olar çörək,
Bir qürsə nan tapınca dönüb qan olar yürək.
Mümkünmidir ağacla və ya daşla yer sürək?
Yer köksini dağıtmağa kəskin kotan gərək!
E'caz göstərib, bəşəri mat edər dəmir,
Zatında cövhər olduğun isbat edər dəmir.

Yalnız nəinki xidmət edər bir fəlahətə,
Alat bəxş edər bütün əhli-sənaətə,
Hər şeydən ziyadə gərəkdir imarətə,
Ahən degilmidir çıxaran xəlqi rahətə?
E'caz göstərib, bəşəri mat edər dəmir,
Zatında cövhər olduğun isbat edər dəmir.

Bir fikr ver ki, bunları asan edən nədir,
Muzi olan səbai hərasan edən nədir,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yüksək cibali xak ilə yeksan edən nədir,
Vəhşisifət xəlayiqi insan edən nədir.
E'caz göstərib, bəşəri mat edər dəmir,
Zatında cövhər olduğun isbat edər dəmir.

Fani olar cəsəd, əgər olmazsa onda can,
Ənhar tək odur ki, axar cism içində qan,
Gər olmasaydı qanda dəmir ruh tək rəvan,
Ziruhdə nə taqət olardı, nə də təvan.
E'caz göstərib, bəşəri mat edər dəmir,
Zatında cövhər olduğun isbat edər dəmir.

Bə'si-şədid sahibi olmaqladır ələm,
Çox işlədikcə cövhər açar, anlamaz ələm,
Var həqqi, çəksə başqa fillizatə gər qələm,
Ver fikr, Cənnəti, nə deyir gör dəmir qələm.
E'caz göstərib, bəşəri mat edər dəmir,
Zatında cövhər olduğun isbat edər dəmir.

*"Maarif və mədəniyyət", aprel 1924*

## MİNACAT

Ey saçan bağі-dəhrə tüxmi-səfa,
Vey səfabəxşi-gülşənü səhra.
Eyləyən daği rəşki-gülşənü bağ,
Lalənin köksünə çəkən qara dağ.
Nərgizin çeşmini qılan məxmur,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qönçəni pərdədə tutan məstur.
Zənbəqin caməsin edən əzrəq,
Susənin xəl'ətin biçən əlhəq.
Ta ki, zənbəq olanda əzrəqpuş,
Susənü sidrban ola xamuş.
Sərvi sərkəş edib qılan rə'na,
Bidi lərzan, çinarı pəncəgüşa.
Fərş edən bağə rəng-rəng çiçək,
Bir-birindən təmamisi gögçək.
Sürxü zərdü bənövşə, səbzü səfid,
Hər birində həzar hüsni-bədid.
Surivü yasəminü nilufər,
Gül açar hər birisi rəngi-digər.
Susənü nəstərənlə siminbər,
Olmuş əmrinlə gülşənə zivər.
Bitirən gülşən içrə şaxi-həbəq,
Verən anilə gülşənə rövnəq.
Gahi nə'na edən, gəhi yarpuz,
Güli-rə'nanı bustanəfruz.
Ey Xudavəndi-bimisalü ədil,
Hikmətin bunları qılar təbdil.
Ey gülə, abü rəng, buy verən,
Tirə topraqdan çiçək yetirən.
Bülbülə ögrədən nəvavü sürud,
Bəzl edən mürğə ləhceyi-Davud.
Qumrinin zikrini edən qu-qu,
Gah yerin sərv, gah ləbi-cu.
Virdini cuyin eyləyən ləx-ləx,
Sərd edən təb'ini məsabeyi-yəx.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Güli atəş qılan gülüstanə,
Bülbüli atəş üzrə pərvanə.
Bülbül urduqca bağ ara cəh-cəh,
Dağ ara kəbk edər ona qəh-qəh.
Səbzəvü sünbüli edən dərhəm,
Üstünə hər səhər saçan şəbnəm.
Suyi cu içrə eyləyən qəlitan,
Cu kənarında səbz edən reyhan.
Əsdirən sübh vəqti bağə nəsim,
Dirilə ta onunla əzmi-rəmim.
Hər pəriru ki, xak olub cismi,
Lövhi-aləmdə qalmayub ismi.
Xaki olmaz əcəb ki, gül bitirə,
Türbəti sərvü narun yetirə.
Dil zücacını tutdu gərdi-məlal,
Tutiyi-təb'im oldu vəh necə lal.
Lalərulər xəyali yaxdı bəni,
Qüssədən soldu işrətim çəməni.
İstədim hikmətindən urum dəm,
Heyrət etdi zəbanimi əbkəm.
Sənədir dərdimiz, İlahi, əyan,
Nə rəvadır edək əyani bəyan.
Qul nə hacət desin ki, mən acəm,
Ya zəlilü zəbunü möhtacəm?
Xacə ol, dinməmiş əlacın edər,
Şübhəsiz dəf'i-ehtiyacın edər.
Leyk haziqi-təbibə gər bimar,
Nə olur dərdini eyləsə izhar.
Dilimin lüknətin götür, yarəb,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əfv qıl, gözləməzsə rəsmi-ədəb.
Övd edib, mətləbə edim təkrar
Ki, olublar əzizlər necə xar.
Xakimiz xun ilə olub təxmir,
Dövri-gərdun verib ona təğyir.
Neçə milyon şəhidi-laləkəfən,
Göstərib adını qoyar gülşən.
Ah, səd ah, gəlməyir nəfəsim,
Ruhim uçmuş, qalıb qurı qəfəsim.
Aləm olmuş gözümdə tirəvü tar,
Doludur gözlərim çü əbri-bəhar.
Nə əcəb, ahim olsa həmçün bərq,
Rə'd tək naləm etsə göyləri xərq.
Heyf, dərdim könüldə qaldı nihan,
İstədim ərz edəm, tutuldu zəban.
Olsa azad xameyi-fulad,
Daş dələr həmçü tişeyi-Fərhad.
Neyləsin şairi-şikəstəqələm,
Qələmi surriyə degil məhrəm.
Nitqi tuti kibi tökər şəkkər,
Çün irər mətləbə, dili kəsilər.
Ey qılan xaki zində fəsli-bəhar,
Çıxaran xaki-tirədən əzhar.
Şəmsü nəcmü hilal seyrindən,
Ərzi-səyyari eyləyən rövşən.
Gülüstanın səfası hörmətinə,
Əndəlibin vəfası hörmətinə.
Eylər gülzari zağdən xali,
Qalmaya mu qədər pərü bali.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bağdən qıl vücudini mə’dum,
Bumi-şumun ki, yümnidir  mə’lum.
Əndəlibi-həzardəstani,
Eylər övrəngi-bağ sultani.
Bizə də xak tək həyat eylə bəxş,
Bizə vərtədən nicat eylə bəxş.
Navəki-xari ədlilə sındır,
Xəsü xaşakə od vurub yandır.
Əbri-cəhli götür həvamizdən,
Nur saçsın günəş səmamizdən.
Elmi-ələmi eylə şəqqəgüşa,
Ruhbəxş ola çün dəmi-İsa.
Bula dilmürdələr çü xaki-həyat,
Səbzü xəndan ola misali-nəbat.
Cənnəti, qəm degil, kər olsa da lal,
Sənə gizlin degil ki, mafil-bal.

* * *

Qədin qiyamı qiyamət edər qiyamə gələndə,
Bir özgə məhşər olur qamətin xuramə gələndə.

Çəməndə qönçəni xəndan edər edəndə zikr ləbindən,
Yıxar sənubəri cuyə qədin xuramə gələndə.

Qələm kibi oluram sinəçak vəcdi-dilimdən,
Həvayi-məşq ilə canan əlində xamə gələndə.

Əgərçi xəlvəti şürb etməgin bir aləmi vardır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir özgə aləm olur mərdüm izdihamə gələndə.

Şəbi-fəraq qəmin şərhin qıllam, ey Vasifi-kamil,
Səhər hüzurə o xurşidvəş səlamə gələndə.

* * *

Çeşmin kim ilə başlasa, cana, zərafəti,
Bimar könlümə yetər ol dəmdə afəti.

Sünbül mücə’’əd olmağı zülfündən öyrənib,
Gül kəsb qıldı qönçə ləbindən lətafəti.
Çingiz məsəllü qan tökəcək, kim ki eyləsə
Əbrulərin müsaidətilə xilafəti.

Ayinələr səfanı cəmalindən əxz edib,
Məhparələr yüzündən, özündən nəzafəti.

Meyxanəni behişt yaparsa, əcəb degil,
Ruyin təravətilə qədümin şərafəti.

Qoysan təriqi-eşqə qədəm, məsti-badə ol,
Huşyar çıxmaz ol yola kim, var məxafəti.

Əzbər bilür fəqih kitabi-təharəti,
Rəf’ eyləməz vəlakin özindən kəsafəti.

Müstəz’əfin malın yeməgə izn verdi şeyx,
Mə’lum olundu əhli-kəmalə xurafəti.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Boş və’dələrlə aşiqi-nakami aldadıb,
Əğyari-bimürüvvətə verdin ziyafəti.

Gər vəslin və’dəsin verəsən şamə, şövqilə
Mən payi-piyadə teyy edərəm ol məsafəti.

Dersən ki, Vasif ilə mənim karım özgədir,
Get özgələrlə et, mən ölüm, bu zərafəti.

* * *

Qaşın qarətgəri-dil, kipriyin yəğmayi-din olmuş,
İki çeşmin can almaqda bir sehri-mübin olmuş.

Xütən ahusidir çeşmin, xətalər eyləyib kafər
Kəməndi-zülfi-çin içrə düşüb ahuyi-Çin olmuş.

Mələk ehsasına hərgiz güman etməzdi xəlqüllah,
Səni gördükcə, ey məh, hamuyə eynəl-yəqin olmuş.

Xəyali-arizin könlüm evini eyləmiş məskən,
Pəri tək xəlqdən qaçmış, gəlib xəlvətnişin olmuş.

Nə şirindilsən, ey ahunigəh, kim, tifl vəqtində,
Qəza bilməm sənə şirü şəkər, ya əngəbin olmuş.

Əlimi üzmə tari-zülfi-tarından, səni tanrı,
Bəni zindani-qəmdən çəkməgə həblül-mətin olmuş.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çağırma Vasifi minbər əyağinə, əman zahid,
Əyağ əldə durub bir guşədə üzlətgəzin olmuş.

*"Türkcə qəzəllər", Bakı, 1917*

## ŞƏRHİ-HALIM

Fələk yüz qissə icad eyləyər, şad olmaq istərsəm,
Geniş dünya dönər zindanə, azad olmaq istərsəm.

Yapar gərdun bənimçün gündə fövqüt-taqə zəhmətlər,
Əgər bir zəhmətə səbr ilə mö'tad olmaq istərsəm.

Özimdən min kərə bədbəxt bullam hər cəvanmərdi,
Mənə bir kimsədən hər dəm ki, imdad olmaq istərsəm.

Xəlayiqdən kənar olsam, deyər mərdüm ki, vəhşidir,
Mənə buynuz yaparlar, adəmizad olmaq istərsəm.

Çəkərsən özgələr fikrin, deyərlər, cümlə qayğudur,
Mürüvvətdən uzaqdır qəlbi, fulad olmaq istərsəm.

Əgər Xosrovluq istərsəm, dönər Fərhadə insanlar,
Olur bir Bisütun hər zərrə, Fərhad olmaq istərsəm.

Özim qeynin, ərusim də dönüb xonsa olar, şəksiz,
Xəyalat əhli tək rö'yadə damad olmaq istərsəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çəkər rəssami-bəxtim fikrimə beytül-həzin tərhin,
Əgər ətrafımi bir xürrəmabad olmaq istərsəm.

Qəzadən zəhri-qatil nuşdaru tək verər səhhət,
Könül qəmxanəsi bilmərrə bərbad olmaq istərsəm.

Adım tarixlərdə, Cənnəti, baqi qalar, heyfa,
Çıxıb el xatirindən büsbütün yad olmaq istərsəm.

* * *

Olub dil mülki viran çərxi-bədbünyad dövründən,
Bu bərbad olmuşun, nolur, çəkərsəm dad dövründən.

Olar yüz Bisütun, ahim sütuni eyləyər viran,
Əsər qoymaz cəhandə zərrəcə Fərhad dövründən.

Çiçəklər, lalələr gər görsə mərdüm əsri-atidə,
Deyər, qanlı əsərlər qalmış istibdad dövründən.

Hərifi-bədqəhhar kəcrəvişdir dəhri-dunpərvər,
Sıxar könlin hərifin, kimsə olmaz şad dövründən.

Təmamən dağü daşlar od tutub yanmış, görən söylər,
Qalıb guya bu viranlıq Səmudü Ad dövründən.

Gəhi Nuşirəvan dövri qılıb dünyanı bir cənnət,
Gəhi Zöhhaki-xunxarın çəkərlər dad dövründən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bizə müslim demək islami istihqaqdır, şəksiz,
Müsəlman yad edər Səlman ilə Miqdad dövründən.

Keçib daş dövri, qurtarmış bürüncün dövri, ey arif,
Üçünci dövrdür, fəryad bu fulad dövründən.

Cəhan övza'ini, ey Cənnəti, tarixdən sordum,
Zəbani-halilə, verdi xəbər Şəddad dövründən.

*"Dirilik", 1 sentyabr 1916*

* * *

Usandım daməni-məhbubü şuxü şəng tutmaqdan,
Yoruldum dünbəğü tənbur ilə ahəng tutmaqdan.

Başimdə var isə azadəlik şuri, həya eylər,
Sərəngüştüm sərü zülfü rübabi-çəng tutmaqdan.

Tutub yüz dəştü dağə hərzəgər dolmaq degil şə`nim,
İgid Məcnunə ar eylər, özün həmsəng tutmaqdan.

Tutub ətrafımi düşmən, ləgədkub eyləyər zalim,
Çəkinməz bimürüvvət ərsəgahi təng tutmaqdan.

Dilim, lal olma kim, tiği-zəbanın seyqəli sözdür,
Qılafində qılıc tək fasid olma jəng tutmaqdan.

Əgər bir qətrə qeyrət qanı qalmışsa əruqində,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çəkinmə, səqqalın al qanın ilə rəng tutmaqdan.

Burax lafi-gəzafi, qıl əsarət qeydini parə,
Usan, ar et, cünunlar tək təriqi-nəng tutmaqdan.

Əgər səyyad isən, bəbrü pələngü şir seyd eylə,
Nolur dəryaçə içrə mahivü xərçəng tutmaqdan.

Əgərçi-qafiyə çox təngdir, ey Cənnəti, ar et,
Bir əldə xamə, digər əldə bir fərhəng tutmaqdan.

*"Dirilik", 15 iyun 1916*

* * *

Könül, hər sərvqəd zülfünə pabənd olma, azad ol!
Çıxar başdan pərirulər xəyalın, adəmizad ol!

Qoyub yüz dəştü dağə Qeys tək səhranəvərd olma,
Uduzma əqlin, ey divanə, Məcnun olma, Fərhad ol!
Qurub təzvir damın daneyi-təsbih göstərmə,
Übusü qəmtərir olmaqdan isə xürrəmü şad ol!

Nə xəlqin dami-təzvirinə düş, nə mərdümi aldat,
Nə seyd ol zalimə, əlqissə, nə məzlumə səyyad ol!

Qumarı qılma adət, müskəratə olma aludə,
Müqəddəs pişəni tərk etmə, kəsbi-karə mö'tad ol!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yapış bir pişəyə sidqilə, hərgiz zufünun olma,
Nə sən’ət ixtiyar etsən, çalış ta onda ustad ol!

Nə öylə aciz olma kim, səni pamal edə düşmən,
Nə də çox tündtəb’ü zalimü bipak cəllad ol!

Muradın səltənətsə, adil ol, Nuşirəvanasa,
Nə Çingiz ol, nə Teymur, nə Nəmrudü nə Şəddad ol!

Həmişə Cənnəti tək məsləkin xeyrül-ümur olsun,
Baş əymə kimsəyə, ancaq Xuda əmrinə minqad ol!

*“Dirilik”, 1 aprel 1916*

* * *

Fərş yapmış lalədən pabusun içün dəştü dağ,
Gəşti-bağ et, çək həsəddən lalənin köksinə dağ.

Dağ seyrin vəqf qıl Məcnunə, ey Leylicəmal,
Seyri-dəştü dağdən xoştər degilmi gəşti-bağ?

Ey güli-rə’na, cəmalın cənnət eylər gülşəni,
Rəhgüzarində qılıbdır lalələr rövşən çıraq.

Saqivü sağər, meyi-mina müyəssərdir, vəli,
Mərdümi-çeşmim baxıb heyran, səni eylər sorağ.

Bağə versən çeşmi-məxmurin görüb, ey qönçələb,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nərgisasa titrəməzmi dəsti-saqidə əyağ?

Sən bənimlə olmasan, cənnət bənə səcin olur,
Od tutub yansın görüm sənsiz, İlahi, bağü dağ.

Nəxvətindən, zahida, daim dimağın xüşkdür,
Rindlər bəzminə var, bir cam ilə ol tər dimağ.

Zaye' etmə mövt fikrilə həyatın nəş'əsin,
Pəndimi al guşinə, "ma əlar-rəsuli illəl-bəlağ".*

Gülşəni-vəsfində, ey gül, nəğməxandır Cənnəti,
İstəyirsən onu bir bülbül hesab et, ya ki zağ.

* * *

Gözəllər, sərvqədlər seyr edər azad olan yerdə,
Çiçəklər, lalələr, güllər bitər abad olan yerdə.

Səhiqədlər miyanında əcaib anə bənzər kim,
Gögərsin bidi-Məcnun ər-ərü şümşad olan yerdə.

Həzər qıl, pəncəsi çox tizdir zalim təmə'karın,
Dolanma, ahu gözlüm, şirdil səyyad olan yerdə.

Şəkərləb Xosrovi-Şirinsüxən bir cismi-bicandır,
Əlində tişəsi dağlar çapan Fərhad olan yerdə.

---

* Peyğəmbərin üzərinə düşən vəzifə ancaq təbliğ etməkdir (Maidə, 99)



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Riya əhlin görəndə, qət'i-söhbət etmək övladır
İgid əsrarını faş eyləyərmi yad olan yerdə?

Nolur, gər zahidi-şum eyləsə məsciddə beytutə,
Həmişə bumdur, məskən tutar bərbad olan yerdə.

Gələndə bəzmi-eyşə rəzmdən söhbət nə lazımdır,
Qəmavər mətləbi açma könüllər şad olan yerdə.

İçərlər mərdümün qanını daim ahənin dillər,
Axar sel kibi qanlar səngəri-fulad olan yerdə.

Riya əhlinə yer yox, Cənnəti, səhni-məkatibdir,
Cəbünlər namünasibdir hünər icad olan yerdə.

*"Dirilik", 6 may 1916*

* * *

Sənə, ey binəva, həmdərd olan biçarə çoxdur, çox,
Sənin tək taleyi bərgəştə, bəxti qarə çoxdur, çox.

Ləcacət bəhrinə qərq eyləyən ümmid kəştisin,
Şəqavət dəştü dağında qalan avarə çoxdur, çox.

Nəhayətsiz qəm ənduhinə miqyas lazimsə,
Bu müşkül əmr üçün tarixdə inkarə çoxdur, çox.

Veribdir guşmali-tərbiyət çoxlarə bu gərdun,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sənin tək dağdarü sinəsi sədparə çoxdur, çox.

Dəğəlbaz olsa hər kəs, e'tibar etməz ona mərdüm,
Hərifi-pakbazın kisəsində parə çoxdur, çox.

Hərifin, şübhəsiz, iflasdır axır sərəncami,
Səyyinan çoxdur, sənin tək yüz tutan divarə çoxdur, çox

Demə, bir Cənnəti nəzzarəmə həsri-bəsər qılmış,
Bu halə şeş cəhətdən eyləyən nəzzarə çoxdur, çox.

*"Dirilik", 16 yanvar 1916*

* * *

Bənim tək şeşdəri-heyrətdə qalmış mat yoxdur, yox,
Başı çaşqın, könül məhzun olan bir zat yoxdur, yox.

Xəyalımdan keçər Məcnun kibi səhranəvərd olmaq,
Himarım ləngdir, əştər yoxdur, at yoxdur, yox.
Qəmim şərhini yazmaq istərsəm hərgah, heyranəm,
Qələm yox, kağızım yox, müxtəsər, alat yoxdur, yox.

Hücum eylər bənə qəm ləşkəri hər ləhzə bin yerdən,
Qəmim dəf' etməgə bir şürbə məşrubat yoxdur, yox.

Deyərdim, hər şeyim mövcuddür, yox kəsrü nöqsani,
Vəli, bu də'viyi-bihudədə isbat yoxdur, yox.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Demə, yoxmu əlindən tutmağa bir yari-qəmxarın,
Uzatma mətləbi, ərz etmişəm kərrat: yoxdur, yox.

Mərəzdənmi, qərəzdənmi bir az halım müşəvvəşdir,
Bənə nöqsanlarım göstərməğə mir'at yoxdur, yox.

Vərəqparəm əlimdən düşdi, hərgiz tutmadı nəqşim,
Qumarbazlar içində bən kimi bir lat yoxdur, yox.

Bənim əyyami-mazidə cəhan titrərdi namımdan,
Hanı ol qüdrətim, ey Cənnəti, heyhat, yoxdur, yox.

*"Dirilik", 16 yanvar 1915*

* * *

Ağladı əbr, çəmən güldü, açıldı əzhar,
Gülşəni cənnətə döndərdi yenə badi-bəhar.

Hikmətüllah nə isə, bircə gül açılmaq ilə,
Bülbülə şur gəlir, gülşənə yüz qoydi həzar.

Nərgisin gözləri məxmur ikən əsdikdə nəsim,
Gətirib huşə nəbatati, açıldı əbsar.

Lalə caminə dolub jalə meyi-gülgun tək,
Badeyi-zövq ilə sağər kibi olmuş sərşar.

Zülfi-canan kibi zövq əhlini pabənd eylər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ətri-sünbül bürüyüb gülşəni çün mişki-tətar.
Çar ərkan kibidir cismə bu dörd ünsiri-pak,
Səri-səbzə, ləbi-cu, nəş'eyi-mey, payi-çinar.

Döşəmiş badi-səba fərşi-zümürrüdfami,
Qələmi-qüdrət ilə açmış ona nəqşi-nigar.

Sən də, ey saqiyi-gülçöhrə, yürüd bəzmə əyağ,
Lalə tək dəstinə al cam, edəlim dəf'i-xumar.

Cənnəti, fəsli-bəhar oldu, gözün aydın ola,
Verdi Həq mətləbini, Xaliqə ol şükrgüzar.

*"Dirilik", 1915, 16 may*

* * *

Qaş-göz gər bir-birilə eyləyərsə e'tilaf,
İki şahiddir ki, var mərdüm içində ixtilaf.

Qövl gər fe'lə məqarin olmasa, kəskin degil,
Çünki göstərməz əsər, gər tiğsiz olsa qilaf.

Cövrün ilə dağ-dağ üzrə çəkilmiş sinəmə,
Odlu ahimdən həzər qılmazmısan, ey divi-Qaf?

Səf çəkib müjgan kibi mərdüm qisas almaqlığa,
Axtarır fürsət əlində xəncəri-xaraşikaf.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əhli-dil əğyarə sormaz, kim həsəndir, kim qəbih,
Hüsnü qəbhi bildirər, ayinə hərgəh olsa saf.

Xardır dövran gözündə hər əzizi-ümmü əb,
Bu əcuzə Yusifə qiymət kəsibdir bir kəlaf.

Dönməz əhdindən kişi namərd tək cəffül-qələm,
Əhdə lazımdır vəfa, kafi degil bir hərfi-caf.

Dust qövli mö’təbərdir, bizcə, tə`minatsız,
Gərçi səhvən söyləyə, bu söz bizə eylər kəfaf.
Eylədin təzyi’ övqati-şərifin, Cənnəti,
Binəvalar nəf’i üçün səhvinə qıl e’tiraf.

*“Dirilik”, 16 aprel 1915*

* * *

Daneyi-xal ilə düşməz damə mərdümzadələr,
Zülfə bənd olmaz əsarət görməyən azadələr.

Kim ki, qılmış vadiyi-təhqiqdə sə’yü səfa,
Kə’beyi-məqsudə açmış hər tərəfdən cadələr.

Şahidi-hürriyyətin canın qüdumi-pakinə,
Eyləyər qurban Minayi-eşqdə üftadələr.

Nöqteyi-mövhumi, ey dil, sor dəhani-yardən,
Nüktədanlıq rəmzü imasını qanmaz sadələr.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ya cüyunəm, ya cünunəm var nədənsə bilməzəm,
Çeşmimə qeydi-əsarət görsənir qəlladələr.

İnhiraf etməm, təriqi-istiqamətdən saqın,
Zalım oğlu, əzmini fəsx eyləməz dildadələr.

Kim ki, qafildir, alır düşmən əlindən varını,
Bir qotur oğlaq da verməz oğruya amadələr.

Ey könül, binəş'ə olmaq eybdir fəsli-bəhar,
Saqi, ney əhzar qıl, gərdişdə olsun badələr.

Seyri-əyyamdır cüm'ə, cəmaət cəm'idir,
Səcdeyi-şükr et, döşənmiş, Cənnəti, səccadələr.

*"Dirilik", 1aprel 1915*

* * *

Guşü huşim bir sədəfdir lö'lö'i-şəhvar söz,
Zövq alır ruhim yetişcək guşimə həmvar söz.

Eyb guşi-müstəme'də, ya ki xud qaildədir,
Hansı məclisdə ki görsən, söylənir təkrar söz.

Çəkmək olmaz tiği-bürran hər yetən kəctəb` üçün,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əksərin islah edər çün tiği-cövhərdar söz.

Qədrdən salmaz sözin mərdi-süxəndan boş yerə,
Saxlayar ol vəqtədək kim, gərm ola bazar, söz.

Aşinalər həq sözi avizeyi-guş eyləyər,
İstima' etməzsə hərgəh, qəm degil, əğyar söz.

Lal ola ol dil ki, qəlbilə müxalifdir sözi,
Qəlbi-safi bilməgə olmuş fəqət me'yar söz.

Eyləməz şəmşir onu kim, eyləyər tiği-zəban,
Xəncəri-fulad çəkmə, ta nə qədri var söz.

Zalım, məzlumi təşxis etməyib qanın içər
Ah kim, fəhm etməz əsla xəncəri-xunxar söz.

Söz qanan azdır ki, qanlar seyl tək olmuş rəvan,
Çox degil, ey Cənnəti, gər olsa bimiqdar söz.

*"Dirilik", 1 mart 1915*

* * *

Bəzm cənnət, saqi qılman, badə abi-səlsəbil,
Cam tut, de: "Eyyühəl-ətşanü, hüna ləkəs-səbil".*

Nəqli-məclisdir kəlami-nəğzü əş'ari-bəliğ,

---

* Ey susuz, yol buradandır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Guş eşitməz əhsən-əhsəndən səva, bir qal-qil.

Yarü yoldaş nüktədan, əhli-tərəbdir bəzləguy,
Meygüvaradır, müğənni biədilü bibədil.

Hər yana baxsan, düzülmüş səf-səf ərbabi-kəmal,
Hər tərəf dönsən, açılmış gül tək əshabi-cəmil.

Nəqş edib nəqqaş divar üzrə gülzari-İrəm,
Tərh edib tərrah gülzar içrə əşcari-nəxil.

Vəh, nə qəsri-dilgüşa kim, basürurü biqüsur,
Vəh, nə cayi-basəfa kim, banişatü biədil.

Məhfili qılmış çıraq bərqi-əraqi-bəhri-nur,
Vəsli andıran iqrarsız leyli-təvil.

Şəm'i-suzan yaxmayır pərvanəni, e'cazə bax,
Nari-Nəmrudi gülüstan eyləmiş guya Xəlil.

Böylə bir məcmu'də mey nuş eyləməzmi Cənnəti?
Sədri-məclis Müstəfadır, pərdədari Cəbrəil.

*1914*

* * *

Ayıl, ey sərvqamət, qıl qiyam ahəstə-ahəstə,
Qiyamətlər qoparma, et xuram ahəstə-ahəstə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Miyanın qucdım ol siminbədən, gülpirəhən yarın,
Qaçındı, söylədi, ey rindi-xam, ahəstə-ahəstə.

Ləbin sordım ki, bilməm, püstədir, ya qönçədir, ey gül,
Dönüb bir baxdı, etdi ibtisam ahəstə-ahəstə.

Çəməndə yarı əğyar ilə gördükdə, həyasından
Dodaqaltı bənə verdi səlam ahəstə-ahəstə.
Şərabın nəş'əsindən sərgirandır ol büti-ziba,
Dönərdi bəzmdə dəstində cam ahəstə-ahəstə.

O şux ilə müdara eyləmək lazımdır, ürkütməm,
Ola ol vəhşi ahu, bəlkə, ram ahəstə-ahəstə.

Darıxma, Cənnəti, səbr et, hənuz əvvəl qədəmdir bu,
Tapar tədric ilə iş intizam ahəstə-ahəstə.

*3 nisan 1926*

* * *

*Cənnətiyə nəzirə*

Xuram et bəzmə, ey mah, təmam ahəstə-ahəstə,
Qiyamət etməsin ta ki qiyam ahəstə-ahəstə.

Təğafül eyləmə, əldən gedər giranmayə,
Əyağə doldır abi-lə'lfam ahəstə-ahəstə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tənimdən tiğini kəsmə, əgər istərsən aləmdə
Tapa məcruh könlüm iltiyam ahəstə-ahəstə.

Riyazi-hüsnün üzrə sünbüli-tər sandığım zülfün
Olur seyli-dili-zarimə dam ahəstə-ahəstə.

Xəyali-zülfü ruyin ahimi aləmşümul etdi,
Gözümdə oldu yeksan sübhü şam ahəstə-ahəstə.

Könül, çək cami-mey, qəm çəkmə, zahid tündü təlx olsa,
Özinə eyşin etsin qoy həram ahəstə-ahəstə.

Rəmidəxatirəm aləmdən, ey mişkin qəzalım, gəl,
Səninlə, bəlkə, könlüm ola ram ahəstə-ahəstə.

Bu rəftar ilə bir kəz bağda etsən xuram, eylər
Təbiətdə qiyamətlər qiyam ahəstə-ahəstə.
Xuram etsə ol İsadəm əgər bin il leyk əmvat,
Qopar məhşər, olar bərpa izam ahəstə-ahəstə.

Könül mə’mur ikən vəslində seylabi-sirişkimlə,
Edər hicrində zahir inhidam ahəstə-ahəstə.

Münəvvər oldu Azər bəzmi-mey xurşidi-sağərdən,
Küdurət getdi, məhv oldi zülam ahəstə-ahəstə.

* * *

*Cənnətiyə nəzirə*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səməndi-təb’ə, ey dil, ver kam ahəstə-ahəstə,
Fəsahət sahəsin seyr et müdam ahəstə-ahəstə.

Sipahi-qəmzəvü qəm cəng edər mülki-vücud üstə,
Gəl, ey tiği-əcəl, ver iltiyam ahəstə-ahəstə.

Qübari-xatiri-Məcnuni sanma girdbad, ey dil,
Qurur səhradə Leylaçün xiyam ahəstə-ahəstə.

Gəzmişəm vadiyi-qəmdə misali-tündbad əsla,
Qəzali-mişki-muyim olsa ram ahəstə-ahəstə.

Səba, düşsə güzarın kuyi-yari-mahruxsarə,
Yetir əğyardən gizlin pəyam ahəstə-ahəstə.

Xiyabandan çıxardar bağban sərvin, qılar azad,
Çəməndə gülrüxim etsə xuram ahəstə-ahəstə.

Nolur, bizə düşsə nəzərgahi, dəmadəm zülfi-şəbrəngi,
Tutarmı arizin mişkin qəmam ahəstə-ahəstə.

Ləbin nazikligin guya atıbdır sağəri-mina,
Öpər lə’li-rəvanbəxşin müdam ahəstə-ahəstə.

Olur kim, Müştəri, nəzmində tapsın Cənnəti nöqsan,
Verir binəzm nəzmə bir nizam ahəstə-ahəstə.

* * *



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sən'an  qiraət etdi məhəbbət risaləsin,
Verdi fənayə taəti-həftadsaləsin.

Qaşın hilal söylədi yarın, yüzin qəmər,
Xurşudi-alın adladı həm Zöhrə xaləsin.

Namusü nəngü ari əyağ altinə salıb,
Tutdi əlində badeyi-əhmər piyaləsin.

Dırnaqlarilə köksünə dağ üzrə çəkdi dağ,
Ol dağı dağdar qılıb dağ laləsin.

Qur'ani yaxmaq istədi, yaxdı vücudini,
Yahu çəkib ucaltdı səmavatə naləsin.

Göz çeşməsarı söndürməz eşqin atəşin,
Dağlardan endirərsə də daşqın şəlaləsin.

Atəş vurub cərayid amalı yandırıb,
Xətm eylə, Cənnəti, bu məhəbbət məqaləsin.

*1344,  2 şəvval*
*1926,  3 nisan*

* * *

*Cənnətiyə nəzirə*

Bülbül çəməndə böylə ucaltmazdı naləsin,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dəhrin düşünməsəydi əgər istihaləsin.

Gül kibi çak edər yaxasın istima’ edən,
Gülşəndə əndəlibi-həzinin məqaləsin.

Aşiqlərin zəmanədə qəssami-ruzgar,
Xuni-cigərmi eylədi qismət nəvaləsin.

Bəxti-siyəhdən umma, könül, nafei-murad,
Yar açmayınca türreyi-mişkinkəlaləsin.
Bağ içrə ta o lalərüxi gördi bağban,
Etdi hicab, dağlara çəkdi naləsin.

Lə’li-ləbində inciyə bənzər, uçuq degil,
Gül bərgi zahir etdi təbiətdə jaləsin.

Gözdən düşən sirşikimin ətfalıdır salan,
Əbnayi-ruzigar gözündən süləsin.

Rindanə bir nəfəs keçən əyyami verməyəm,
Zahid verərsə taəti-həftadsaləsin.

Dün təl’əti-cəmalın o mahın görüb, məgər
Xiclət ay yüzinə ələk tutdı haləsin.

Yazmış dəbir məhkəmeyi-eşq adınə,
Ruzi-əzəl məmaliki-hüsnin qəbaləsin.

Zahid xilas edər özini qeylü qaldən,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir kəz qiraət eyləsə eşqin risaləsin.

Fəhm eyləsəydi “xəmseyi-nəvvamə” nolduğun,
Mey təhy edərdimi zahid piyaləsin.

Caiz degil “səlaseyi-qəssalə” zahidə,
Pak etməyincə dəhrdə abi-qəsaləsin.

Söndürməz atəşi-dili-zarını Azərin,
Döndərsə həp təbiət üstümə şəlaləsin.

*5 nisan 1926*

* * *

*Cənnətiyə nəzirə*

Gülşəndə mürği-dil elə yüksəltdi naləsin,
Axar su qət’ elədi yeksər şəlaləsin.

Ol qədr çeşm çeşməsi xun cari etdi kim,
Nərgis çəməndə qıldı ləbaləb piyaləsin.
Bir halə saldı sünbüli aşüftə halətim,
Xak üzrə yoldi tökdi başından kəlaləsin.

Xövf etdi seyli-əşkimi gördikdə bağban,
Filfövr dağ damənin yığdı laləsin.

Ətfal çeşmi-mərdümi bir həddə mərdümi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təngə gətirdi ki, yerə vurdi sülaləsin.

Qətərati-əşki-didəni zənn etsə, eybi yox,
Gül çöhrəsində kim görür olursa jaləsin.

Güllər güləndə tərki-fəğan etmə, Müştəri,
Kəsməz bu fəsl aşiq olan kimsə naləsin.

* * *

Yaqut mey tökildi bilurin piyaləyə,
Verdi şikəst sağəri-mey cami-laləyə.

Mey tabəş ilə ruyinə, ey gül, ərəq düşüb,
Bənzər çəməndə lalənin üstündə jaləyə.

Kövsər ki, əsrlərlə onun vəsfi zikr olur,
Tə’bir edən yuxumu şərabi-düsaləyə.

Ahu baxışlı çeşminə meyl etdi mürği-dil,
Rəm qıldı, qondi kakili-mişkinkəlaləyə.

Zülfi-rüxin həvasinə meyl eyləyən məgər,
Pabənd olurmi sünbülə, dildadə laləyə.

Xəttin yazanda Adəmə cənnət qəbaləsin,
Qaşın qələm qatubdı, deyirlər, qəbaləyə.

Pak etdi cümlə aləmi barani-mə’rifət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Zahid hənuz ərəqdi abi-qəsaləyə.

Canım nə …… nə təbibi-yəhudsən,
Artırma fəsl, bab hədislə imaləyə.

Ağlatdı, Cənnəti, bəni əfsusi zahidin,
Aləm dağılsa, gəlməz idim ahü naləyə.

* * *

Mən nə anəstəm ki, cəm'i pişva danəd məra,
Nə əz anhayəm ki, bə'zi ba əsa ranəd məra.
Dusti hər ki, beşuxi duzəxi guyəd, çe bak,
Hatifi-qeybi dəmadəm, Cənnəti xanəd məra.*
Təftiş nəma, be-hey'ətü surəti-mən,
Ta rəh bebəri bemə'məni-siyrəti-mən.
Əz ro'yəti-mən məbada əğfal xori,
Səd gunə tilsim həst, dər xilqəti-mən.

*Tərcümə:*

Təftiş ilə bax hey'ətimə, surətimə,
Ta yol tapasan həqqi ilə siyrətimə,
Bu hey'ətdən məbada qafil olasan,
Məxmurdür bir çox tilsim xilqətimə.

---

*Mən o kəs deyiləm ki, hamı məni özünə rəhbər bilsin. Nə də o kəslərdənəm ki, bəziləri məni əsa ilə qovsun. Hər bir dost ki, zarafatla mənə cəhənnəmlik deyir, qorxusu yoxdur. Qeybdən mələk daim, məni Cənnəti (cənnətlik) deyə çağırır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## FARSCA ZÜLQAFİYƏTEYN

Nəzdi-mən ay, həbiba, məkon əz məhrəm, rəm,
Pişi-əğyar məkon qəddi-xod əz çəm-xəm, xəm.

Nəfs, şeytani-həqiqist, həzər əz nəfsəş,
Kin səgi-nəhsü nəcs zəd bəgili-adəm, dəm.

Rubəhasa mənəma, hilə ze məbhər tə'mə,
Gürbeyi-mətbəxi-xud şov, məxor əz ziyğəm, qəm.

Arifi-püxtə zə dərya nəşəvəd tər, damən,
Zahidi-xam nigər mikəşəd əz şəbnəm, nəm.

Bisəri-zülfi-to bizar, zə seyri çəmənəm,
Sünbüləm dərdsər əfrayədü əspər qəm.

Dili-məcruhi-məra çarə nədanəst təbib,
Zəxmi-pünhani tura bari nöh mərhəm, həm.

Cənnəti, təb'i-süxənsənc nədarəm hərçənd,
Hayü hu mikonəm axər nəmayəm əz əbkəm, kəm.*

* Ey dostum, mənim yanıma gəl, məhrəm, sirdaş olmaqdan qorxma! Əğyarın yanında öz qəddini bükmə. Nəfs həqiqi şeytandır, nəfsdən həzər eylə ki, bu murdar it Adəmin torpağını yaladı. Tülkücəsinə tamah məqsədi ilə riyakar olma. Öz mətbəxinin pişiyi ol, aslandan qorxma. Bişmiş arif dəniz suyundan islanmaz, xam zahid isə şehdən islanmaqdan qorxar. Sənsiz çəmənlikdə gəzməkdən bezmişəm. Sünbülüm başımı ucaldır, qalxanım isə artırır. Mənim yaralı qəlbimin çarəsi yoxdur, həkim, sənin örtülü yarana barı mərhəm qoy. Cənnəti baxmayaraq ki, məndə qeyri-adi təb yoxdur, hay-hay eləyirəm, axır ney kimi sızıldayıram.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## RÜBAİLƏR

Əz rahi-nəsihətəm çənin qoft ədib,
Zinhar məxur, be nərmiyi-mar fərib.
Əz müslimi-səxtgu şəno kəlmeyi-həq,
Fəryad, ze qövli-ləini-əhli-səlib.[**]

**Tərbi'**

Bər alimi-ma, bəhsi-cədəl mibayəd,
Bər arifi-ma, qövlü qəzəl mibayəd.
Quyəndə çe xoş qoftə bema cani-kəlam,
İnha həmə qövl əst, əməl bibayəd.[*]

Dər dideyi-ma, yeki bud rumü firəng,
Ba əhli-zəmanə sülh darim, nə cəng,
Türkü ərəbü əcəm bəma çün canənd,
Yek dəsteyi-gül an beh ki, şəvəd rəngarəng.[**]

Şahi ki, nə u pasi-rəiyyət darəd,
Mərdi ki, nə u qeyrətü himmət darəd,

---

[**] Nəsihət edərək ədib belə dedi: Məbada ilanın yumşaq olan bədəninə aldanasan. Ağır danışan müsəlmandan haqq kəlməsini eşit. Xaspərəstin lənətə gəlmiş sözündən fəryad.

[*] Bizim alimimizə mübahisə və dava gərəkdir. Bizim arifimizə söz və qəzəl gərəkdir. Deyənlər nə çox gözəl demişlər, bunlar hamısı sözdür, əməl lazımdır.

[**] Rumla firəng bizim gözümüzdə birdir, zəmanə əhli ilə müharibə yox, sülh etmək istəyirik. Türk, ərəb, əcəm bizim can qardaşlarımızdır. Bir dəstə gül eyni rəngdə olan rəngbərəng güldən yaxşıdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kəmtər ze zəni bud ki, əndər xanə,
Peyvəstə xəyali-zibü ziynət darəd.[***]

## SON ŞEİRİ

Yetər, ey mürdeyi-cünbündə həvəsdir, bəsdir,
Ruhin uçmuş, cəsədin xali qəfəsdir, bəsdir.

Bir müqəvva kibisən, tabü təvanın yoxdur,
Dirilikdən əsərin varsa, nəfəsdir, bəsdir.

Çalınır zəngi-şütür, başqa tədarük nə gərək,
Bu ənifin ki, həmavazı cərəsdir, bəsdir.

Pir vəqtində cəvanlar kibi at oynatma,
Qarğıdır çapdığın at, sanma fərəsdir, bəsdir.

Badənin nəş'əsi bibak cəvanlarda olur,
Qocanın nəş'əsisə xofi-əbəsdir, bəsdir.

Zövqsizsən, özini yorma sözün-şe'rinlə,
Mə'nisiz ləfzlərin bir quri səsdir, bəsdir.

Bir də minbə'd kəlamında həlavət olamaz,
Cənnəti, xətmi-kəlam et, dəxi bəsdir, bəsdir.

---

[***] Rəiyyətini müdafiə etməyən şah qeyrəti, himməti olmayan adama bənzər. Həmişə fikri bəzənib-düzənməkdə olan qadından da aşağı olar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## MÜNDƏRİCAT

Ön söz ........................................................ 3
Hürriyyət ..................................................... 6
Hürriyyət ..................................................... 7
Könül, ta var əlində sağəri-sərşari-hürriyyət... 7
Binəvalar təranəsi ........................................ 8
Əş’ar .......................................................... 9
Hürriyyətə xitab ........................................... 10
Təhniyəti-eydi-mövlud.................................. 13
Əziz dostum Müznib cənablarına nəzirə ....... 14
Hər kimin kim, çeşmi-insafın qərəz kur eyləmiş 15
Söz aça qamətindən, ey qələmqamət, qiyamətdir 16
Mənsur cənablarına nəzirə deyil, cavabdır .... 17
Səhər çayım, nəhar nanü pənir, axşama bozbaşım 18
İntibah ........................................................ 18
Qələm ......................................................... 19
Qələm ......................................................... 20
Topraq ........................................................ 20
Topraq ........................................................ 21
Hilal imiş ..................................................... 23
Hər ol kəs ki, olub bir qarğısaç dildar dilbəndi 24
Aqça ........................................................... 25
Mürəttiblər .................................................. 26
Mərhum Haşım bəyin ruhunu tərvih .............. 27
Tərkibbənd .................................................. 28
Keyfiyyəti-hal .............................................. 30
Zəlilin tutmayan dəstin əzizü ərcümənd olmaz ..30
Qələm ......................................................... 31



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bənzətmək olmaz .......................................... 32
Vətən təranəsi ................................................ 33
Qadın ............................................................ 35
Mövludi-Nəbi ................................................. 36
Arzularım ...................................................... 37
Kitab .............................................................. 39
Tövbix ............................................................ 40
İsanı xəcil etmədədir sübh nəsimi ................. 41
Edər ............................................................... 42
Qələm ............................................................ 43
Vətənim .......................................................... 44
Tərcibənd ....................................................... 45
Libas .............................................................. 46
Payız ki, daxil oldu, tökdü yapraq bağü bostanlar 47
Məktəb ........................................................... 48
Şair ................................................................ 49
Dəvat ............................................................. 51
Ehda .............................................................. 51
Gözümdə bir görünür şah ilə gədayi-vətən ... 52
Nadan keçirdər ömrünü əfğanü ah ilə ........... 53
Bayrağımız ..................................................... 54
Sancaq ........................................................... 55
Fəxriyyə ......................................................... 55
Sə’didən tərcümə .......................................... 57
Mütərcimin dilindən ....................................... 57
Öyüd .............................................................. 58
Dəmir ............................................................. 64
Minacat .......................................................... 65
Qədin qiyamı qiyamət edər qiyamə gələndə .. 68



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çeşmin kim ilə başlasa, cana, zərafəti .......... 68
Qaşın qarətgəri-dil, kipriyin yəğmayi-din olmuş .69
Şərhi-halım .................................................. 70
Olub dil mülki viran, çərxi-bədbünyad dövründən 71
Usandım daməni-məhbubü şuxü şəng tutmaqdan 72
Könül, hər sərvqəd zülfünə pabənd olma, azad ol! 72
Fərş yapmış lalədən pabusun içün dəştü dağ 73
Gözəllər, sərvqədlər seyr edər azad olan yerdə 74
Sənə, ey binəva, həmdərd olan biçarə çoxdur, çox 75
Bənim tək şeşdəri-heyrətdə qalmış mat yoxdur, yox 75
Ağladı əbr, çəmən güldü, açıldı əzhar ........... 76
Qaş-göz gər bir-birilə eyləyərsə e'tilaf ........... 77
Daneyi-xal ilə düşməz damə mərdümzadələr 78
Guşü huşim bir sədəfdir lö'lö-i-şəhvar söz .... 79
Bəzm cənnət, saqi qılman, badə abi-səlsəbil 79
Ayıl, ey sərv qamət, qıl qiyam ahəstə-ahəstə 80
Cənnətiyə nəzirə .......................................... 81
Cənnətiyə nəzirə .......................................... 82
Sən'an qiraət etdi məhəbbət risaləsin ........... 83
Cənnətiyə nəzirə .......................................... 83
Cənnətiyə nəzirə .......................................... 84
Yaqut mey tökildi bilurin piyaləyə .................. 85
Mən nə anəstəm ki, cəm'i pişva danəd məra 86
Farsca zülqafiyəteyn .................................... 86
Rübailər ....................................................... 87
Tərbi' ........................................................... 87
Son şeiri ....................................................... 88



Created by Neevia Personal Converter trial version http://www.neevia.com